www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 iyul 2023-cü il Cümə axşamı № 123 (8259) Qiymәti 60 qәpik

**Xəbər**

## Müəllimlər və tələbələr imtahanlardan narazıdır - səbəblər

yazısı səh.3-də

**Gündəm**

### Bərzaninin Azərbaycana səfərində nələr razılaşdırıldı - rəylər



İraq Kürdüstan Regionu ilə əməkdaşlığın perspektivləri

yazısı səh.3-də

### Separatçıların sülhməramlılarla birgə təxribatları dayanmır - nə etməli?

yazısı səh.9-da

### Putinin Ərdoğandan küskünlüyü nə qədər davam edəcək - Kreml nə istəyir...

yazısı səh.6-da

### Korrupsiyaya görə 28 şəxs cinayət başında yaxalanıb

yazısı səh.12-də

### Lirə hansı həddədək enə bilər - Türkiyədə iqtisadi islahatlar davam edəcəkmi...

yazısı səh.10-da

### Hansı partiyalar qeydiyyata alına bilər? - 27 təşkilatdan neçəsi özünə güvənir....

yazısı səh.7-də

### Kanada Aİ-nin Ermənistandakı Monitorinq Missiyasına qoşulur

yazısı səh.2-də

### Övladını zibilliyə atan ananı hansı cəza gözləyir - rəy

yazısı səh.13-də

### BMT-dən dünyaya "isti SOS" - bəşəriyyət təhlükənin ağuşundadır?

yazısı səh.15-də

### Kişilərin zorakılığa məruz qalması halları çoxalıb

yazısı səh.14-də

# QARABAĞDA BÖYÜK OYUNUN SON PƏRDƏSİ: RUSİYA SONUNCU "PATRONU" ATIR, BAKI İSƏ...

Azərbaycanın oyuncaq rejimə və havadarına əks-zərbəsi qəfil və ağrılı olacaq! **Kremlə yaxın nəşr:** "Cənubi Qafqaz dramatik hadisələr ərəfəsindədir..."




yazısı səh.8-də

## "Azərsu"nun ziyanı haradan qaynaqlanır - su heç də ucuz deyil, amma....

Qurumun qazanmaq əvəzinə itirməsinin səbəbləri; **Anar Cəbrayıllı:** "Zərərin əsas səbəbi amortizasiya xərcləridir"

yazısı səh.4-də



Elçin Əmirbəyov

### Prezidentin xüsusi nümayəndəsinin vəzifələri nə olacaq? - PA-da yenilik

yazısı səh.5-də



### Nəcməddin Sadıkovun yaxın adamı yenidən həbs olundu - 42 milyonluq yeyinti

yazısı səh.11-də



### Hikmət Hacıyev Aİ səfirləri ilə görüşdü

yazısı səh.2-də

yazısı səh. 8 və 9-da

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 123 (8259) 20 iyul 2023

# Hikmət Hacıyev Aİ səfirləri ilə görüşdü



**Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqına üzv ölkələrin Azərbaycandakı səfirləri ilə görüşüb.**

APA xəbər verir ki, bu barədə Almaniyanın Azərbaycandakı səfiri Ralf Horlemann Twitter hesabında bildirib.

"Ədalətli və dayanıqlı sülhə gedən yol barəsində Aİ və tərəfdaşlarla dəyərli müzakirələrə görə Hikmət Hacıyevə təşəkkür edirəm.

Almaniya hər iki münaqişə tərəfinin oraya mümkün qədər tez çatması üçün dəstək verməyə sadiqdir", - alman diplomat qeyd edib.

Qeyd edək ki, görüşdə ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Hüqo Qevara, Türkiyə səfiri Cahit Bağçı və Böyük Britaniya səfirinin müavini də iştirak edib.



## Erməni ekspert: "Hazırda Rusiyanın Qarabağdakı mövqeləri Türkiyə və Qərbin əlinə keçir"

**Hazırda baş verənlər Rusiya sülhməramlılarının funksiyasını ələ salmaqdan başqa bir şey deyil.**

Musavat.com Ermənistan mediasına istinadən xəbər verir ki, bu fikir erməni politoloq Aleksandr İskəndəryan tərəfindən səslənib.

Onun sözlərinə görə, Rusiya Xarici İşlər Nazirliyi Azərbaycana 10 noyabr bəyanatına əməl edilmədiyi ilə bağlı siqnal göndərib. Lakin İskəndəryanın fikrincə, həqiqəti siyasi reallıq müəyyən edir. "Sənədlər o vaxta qədər yaşayır ki, onları qüvvədə saxlayan şərait olur. Ukrayna müharibəsi başlayandan sonra bu şərtlər artıq mövcud deyil. Rusiyanın resurs bazası başqa yerlərə yönəlib, onun Qarabağa vaxtı yoxdur", - deyə İskəndəryan vurğulayıb.

**İskəndəryana görə, Azərbaycan Prezidenti İlham Əliyev bunu yaxşı başa düşür və fürsəti dəyərləndirir.** "Əgər Azərbaycan özünü kifayət qədər güclü hiss edirsə, Rusiya isə kifayət qədər zəifləyibsə, o zaman vəziyyətdən asılı olaraq Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması gec-tez baş verə bilər. Bu, 2025-ci ildə, daha əvvəl və daha sonra baş verə bilər. Azərbaycan çalışacaq ki, sülhməramlılar oradan yoxa çıxsın, çünki onlar üçün yeganə maneə sülhməramlılardır", - deyə erməni politoloq bildirib.

**Ekspertin fikrincə, Türkiyənin Cənubi Qafqazdakı mövqeyini 2020-ci il müharibəsi müəyyən edir**: "Ankara birmənalı olaraq Bakını dəstəklədi. Bu müharibədə türk müttəfiqi qalib gəldi, rus müttəfiqi isə uduzdu. Türkiyə bu payları itirmək fikrində deyil, ona görə də Azərbaycana dəstəyini davam etdirəcək".

**Erməni politoloq Qərbin mövqeyinə də toxunub.** "Qərb bir şəkildə regionda sülhün olmasına çalışır və problemin hansısa yolla həllini istəyir, lakin təfərrüatlar onun üçün o qədər də maraqlı deyil. Qarabağ ermənilərinin harada olacağı, hansı keçid məntəqəsindən keçəcəyi və digər məsələlər Qərb üçün ikinci dərəcəli əhəmiyyət kəsb edir", - deyə Aleksandr İskəndəryan yekunlaşdırıb.

❑ **Musavat.com**




## Kanada Aİ-nin Ermənistandakı Monitorinq Missiyasına qoşulur

**Avropa İttifaqı (Aİ) Şurasının Siyasi və Təhlükəsizlik Komitəsi Kanadanın Aİ-nin Ermənistandakı Monitorinq Missiyasına töhfə vermək təklifini təsdiqləyib.**

APA xəbər verir ki, bu, Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin 18 iyul tarixli qərarında əks olunub.

"Kanadadan Avropa İttifaqının Ermənistandakı Missiyasına (EUMA) töhfə qəbul edilir və bu, əhəmiyyətli hesab olunur. Kanada EUMA-nın büdcəsinə maliyyə töhfələrindən azaddır", - qərarda deyilir.

Qərar qəbul olunduğu gündən qüvvəyə minir.

**Elan:**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş MAHX hərbi qulluqçusu Bağırov Tural Fazil oğluna məxsus şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.**

***

**Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən verilmiş MAHX hərbi qulluqçusu İbrahimov Gündüz İkram oğluna məxsus şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.**



## Türkiyədə yeni neft yatağı tapılıb

**Türkiyənin Gümüşhane Universitetinin alimləri 1930-cu illərə aid neft kəşfiyyatı məlumatlarını araşdırdıqdan sonra Ərzincandakı potensial neft yataqlarını yenidən tədqiq ediblər. Onlar belə bir nəticəyə gəliblər ki, bölgədə tərkibi Rusiya neftinə oxşar neft qalıqları var.**

Gümüşhane Universitetinin Geofizika mühəndisliyi fakültəsinin rəhbəri, professor Nafiz Maden bildirib ki, Çimaqıl kəndində aparılan tədqiqatlar suyun səthində neft damcılarının olduğunu və davamlı karbohidrogen qoxusunun olduğunu göstərib.

Potensial mənbənin gələcək kəşfiyyatını "Turkish Petrolları" neft şirkəti aparacaq.

## Azərbaycanın Fransaya ixracı 57 dəfə artıb



**2023-cü ilin yanvar-iyun aylarında Azərbaycanın Fransaya ixracı 126 milyon 747 min dollar təşkil edib.**

"APA-Economics"in Dövlət Gömrük Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, bu göstərici ötən ilin ilk 6 ayı ilə müqayisədə 57 dəfə və ya 124 milyon 525 min dollar çoxdur. 2022-ci ilin müvafiq dövründə Azərbaycandan Fransaya 2.2 milyon dollar dəyərində məhsul ixrac edilib.

Qeyd edək ki, hesabat dövründə Fransadan Azərbaycana idxalın həcmi illik müqayisədə 2.6 dəfə artaraq 290 milyon 972 min dollara bərabər olub.

Cari ilin yanvar-iyun aylarının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Fransa ilə ticarətin payı 1.60% təşkil edib.

## II və III qruplar üzrə qəbul imtahanının nəticələrinin elan olunacağı vaxt açıqlanıb

**II və III qruplar üzrə qəbul imtahanının nəticələrinin elan olunacağı vaxt açıqlanıb.**

APA xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzi tərəfindən sosial şəbəkədə məlumat verilib.

Qeyd edilib ki, II və III qruplar üzrə qəbul imtahanının nəticələrinin bu həftənin sonuna kimi elan olunması nəzərdə tutulur.

## Neft Emalı Zavoduna yeni direktor təyin olundu




**SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavoduna (NEZ) yeni direktor təyin edilib.**

Qurumdan "Qafqazinfo"nun sorğusuna cavab olaraq bildirilib ki, bu vəzifəyə Xəyal Cəfərov gətirilib.

Onun daha əvvəl "SOCAR Karbamid" zavodunun direktoru vəzifəsində çalışdığı bildirilir.

## ÜST-in baş direktoru: "COVİD-19 qlobal sağlamlığa təhdid olaraq qalır"

**"COVİD-19 qlobal sağlamlıqla bağlı fövqəladə hal kimi başa çatsa da, qlobal sağlamlığa təhdid olaraq qalır".**

APA xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus qlobal səhiyyə məsələləri ilə bağlı media brifinqdə deyib.

O bildirib ki, hələ də dünyanın müxtəlif nöqtələrindən yeni yoluxma halları və ölüm halları ilə bağlı xəbərlər gəlir.

"İnsanlar peyvənd və əvvəlki yoluxmalardan sonra immunitet yarandığı üçün daha yaxşı qorunsa da, bu, məsuliyyətsizlik üçün bəhanə deyil. ÜST yüksək risk altında olan insanlara izdihamlı yerlərdə maska taxmağı, tövsiyə edildikdə buster doza vurdurmağı və qapalı yerlərdə lazımi ventilyasiyanı təmin etməyi tövsiyə etməyə davam edir. Biz hökumətləri COVİD-19 üçün qurduqları sistemləri saxlamağa çağırırıq: Nəzarət və hesabat aparmağa davam etmək, variantları izləmək, erkən klinik yardım göstərmək, ən riskli qruplar üçün buster dozalar təmin etmək, ventilyasiyanı yaxşılaşdırmaq və müntəzəm ünsiyyət kommunikasiyanı davam etdirmək lazımdır", - ÜST-in baş direktoru vurğulayıb.

# Bərzaninin Azərbaycana səfərində nələr razılaşdırıldı - İraq Kürdüstan Regionu ilə əməkdaşlığın perspektivləri

## Elxan Şahinoğlu: "Prezident İlham Əliyevin Azərbaycanın İraqın Kürdüstan regionunda baş konsulluğunu açacağını bəyan etməsi əlaqələri daha da gücləndirməyə xidmət edir"



**İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani iyulun 18-də Azərbaycan Respublikasına işgüzar səfərə gəldi. Bu, İraq Kürdüstan Regionu rəhbərinin ölkəmizə ilk səfəri idi. İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə təkbətək görüşü olub.**

Söhbət zamanı Prezident İlham Əliyevlə Neçirvan Bərzani arasında bu ilin fevralında Münxendə keçirilən görüş xatırlanıb. Həmin görüşdə əməkdaşlığın əsas istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı səmərəli müzakirələrin aparıldığı qeyd olunub, Neçirvan Bərzaninin səfərinin əməkdaşlığımızın dinamikasının artması işinə töhfə verəcəyi bildirilib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib. Söhbət zamanı İraq Kürdüstan Regionu ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, sərmayələr, enerji sahəsində əməkdaşlıq, turizm imkanlarının artırılması, birbaşa aviareyslərin açılması və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

Nəzərə çatdıraq ki, Azərbaycan Prezidenti İlham Əliyev bu il fevralın 18-də Almaniyada keçirilən Münhen Təhlükəsizlik Konfransında baş tutan görüşdə Bərzanini Bakıya dəvət etmişdi.

İraq Kürdüstanı Regionu bu bölgədə kifayət qədər potensiala malikdir. İraq Kürdüstanında hazırda kifayət qədər münbit investisiya şərtləri var.

Onu da vurğulayaq ki, İraq Kürdüstanının inkişafında Qərb maksimum maraqlıdır və regiona ciddi dəstək verir.

Azərbaycanın İraq Kürdüstanı ilə sıx əməkdaşlığı bizə siyasi və iqtisadi baxımdan nə qazandıra bilər? Bakıda konkret hansı hədəflər müəyyənləşib? Bəs bundan hansısa güclər, ölkələr narahat ola bilərmi?

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın İraq Kürdüstanı ilə əlaqələri genişləndirməkdə əhəmiyyətli maraqları var:** "Birincisi, İraqın Kürdüstan bölgəsində zəngin neft və qaz yataqları var. Azərbaycan bu yataqların işlənilməsinə investisiyalar qoya bilər. Azərbaycan Dövlət Neft Şirkətinin İraq Kürdüstanı ilə ortaq layihələr reallaşdırması mümkündür. Digər tərəfdən, Azərbaycanla İraq Kürdüstanı qazının Türkiyə üzərindən birlikdə Avropa bazarlarına nəqli həyata keçirilə bilər. "İraq Kürdüstanı öz qazını Azərbaycandan Avropaya uzanan boru xətləri ilə nəql edə bilər. Bu, TANAP və TAP boru xətlərinin ötürücülük imkanlarını artıracaq. Bununla Azərbaycanın, İraq Kürdüstanının və Türkiyənin bölgədə rolu artacaq.

İkincisi, İraq Kürdüstanı Azərbaycanın bölgənin başqa sahələrinə də investisiya qoymasını istəyir. Türkiyə şirkətləri də İraq Kürdüstanının iqtisadiyyatının müxtəlif sahələrinə investisiyalar yatırırlar. Azərbaycan şirkətləri İraq Kürdüstanının tikinti sahəsinə və yolların çəkilməsinə investisiyalar yatıra bilər".

**Politoloq qeyd etdi ki, üçüncüsü, Azərbaycanla İraq Kürdüstanı arasında əlaqələrin inkişafı Türkiyənin də maraqlarına xidmət edir:** "Türkiyə İraq Kürdüstanı ərazisində radikal qrupların fəaliyyətlərinin qarşısını almağa çalışır. Türkiyəyə qarşı terror planlaşdıranlar bəzən İraq Kürdüstanı ərazisindən də istifadə edirlər. Bunun qarşısının alınması yollarından biri İraq Kürdüstanı rəhbərliyi ilə siyasi və iqtisadi əlaqələrin genişləndirilməsidir ki, bu yolla birlikdə bölgədə terrorçu fəaliyyətlərin qarşısı alınsın.

Dördüncüsü, İraq Kürdüstanında azərbaycanlılara yaxın olan türkmənlər yaşayır. Türkiyə və Azərbaycan İraq Kürdüstanı ərazisində yaşayan türkmənlərin siyasi və iqtisadi imkanlarının artmasında maraqlıdır".

**Elxan Şahinoğlu vurğuladı ki, Prezident İlham Əliyevin Azərbaycanın İraqın Kürdüstan regionunda baş konsulluğunu açacağını bəyan etməsi əlaqələri daha da gücləndirməyə xidmət edir:** "Bu, bölgədə yaşayan türkmənlər üçün də faydalı olacaq. Beşincisi, Ermənistan da İraq Kürdüstanı ilə əlaqələri gücləndirməyə çalışır. Ermənistan İraq Kürdüstanında baş konsulluğu iki il əvvəl açıb. Konsulluğun açılmasında Ermənistan xarici işlər nazirinin müavini iştirak etmişdi. Ermənistanın baş naziri Nikol Paşinyan İraq Kürdüstan bölgəsinin başçısı Neçirvan Bərzani ilə bu il Münhendə görüşərək ikitərəfli əlaqələrin inkişafında maraqlı olduğunu söyləmişdi. Bunları nəzərə alaraq, Azərbaycanın İraq Kürdüstanında konsulluğunun qısa müddətdə fəaliyyətə başlamasına ehtiyac var".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Müəllimlər və tələbələr imtahanlardan narazıdır

## MİQ imtahanı ilə yanaşı, ali məktəblərdə semestr imtahanları ilə bağlı da narahatlıqlar artıb

**Ölkədə bir neçə ildir müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün Elm və Təhsil Nazirliyi tərəfindən imtahanlar, sertifikasiya təşkil olunur. Habelə pedaqoji sahədə 5 il ali təhsil almış müəllimləri də işə yalnız MİQ imtahanının nəticələrinə uyğun olaraq alırlar. Düzdür, gələcəyimiz olan şagirdlərə daha savadlı müəllimlərin dərs deməsi üçün bu addımlar alqışlanmalıdır. Ancaq bu prosesdə neqativlər də var. Əsas narazılıq imtahanlarda səhv sualların olması və düz sualların da həddən artıq çətinliyi ilə bağlıdır.**



İyulun 18-də Elm və Təhsil Nazirliyinin qarşısında Azərbaycan dili və ədəbiyyat müəllimlərinin aksiyası olub. Müəllimlər bildiriblər ki, imtahanda təqdim olunan testlərdə kifayət qədər nöqsanlar və qüsurlu suallar var. Onlar imtahanın yenidən təşkilini tələb ediblər.

Son vaxtlar ali məktəblərdə semestr imtahanları ilə bağlı da narazılıqlar artıb. Tələbələr bildirir ki, semestr imtahanlarında yazılı suallar tədris olunmayan materiallardan tərtib olunur, nəticədə onlar kəsilir və sonra yenidən Boloniya sisteminə uyğun şəkildə, əlavə pul ödəyərək yay məktəbinə saxlanılırlar. Ali məktəblərdə bu, artıq dəb halını alıb, bəzi universitetlərdə müəllimlər bunu bir növ biznesə çeviriblər...

İmtahan suallarının tərtibi ilə bağlı nəzarət mexanizmi tətbiq olunması gündəmə gəlib. Bu suallar insanların taleyini, karyerasını həll edirsə, deməli, onu necə gəldi, qüsurlu tərtib edib, sonra da bir yanlış kimi qiymətləndirmək qəbahətdir, yolverilməzdir.

**Təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a açıqlamasında təsdiqlədi ki, son 3 il ərzində imtahanların təşkilində ciddi qüsurlar qeydə alınıb. Ekspert Elm və Təhsil Nazirliyinin iştirakçıların daha yaxşı hazırlaşması üçün çərçivə sənədi hazırladığını, lakin çərçivə və qaydalarına riayət olunmadığını qeyd etdi: "Aparılan təhlillər göstərir ki, istər sertifikasiya imtahanları, istərsə də müəllimlərin işə qəbulu imtahanlarında təqdim edilən suallar qüsurludur. ETN də səhvlərin olduğunu etiraf edib, iştirakçılara əlavə bal verməklə problemi aradan qaldırmağa çalışır, amma bu doğru yanaşma tərzi deyil. İmtahanların ümumi gedişatını təhlil edərkən görürük ki, test tərtibçilərinin testlərin tərtib olunma qaydalarından xəbəri yoxdur. İmtahan zamanı iştirakçıların yerləşməsi öncədən bəlli olmadığı üçün bu da problem yaradır. Hətta problemlərdə texniki problemlər ortaya çıxır".

**Ekspert bildirdi ki, Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş "Ali təhsil müəssisələrində semestrin təşkili qaydaları"nda imtahanın konkret modeli yoxdur:** "Universitetlər qiymətləndirməni test variantında, yazılı, yaxud şifahi həyata keçirirlər. Bəzi universitetlərdə qiymətləndirmə düzgün aparılmır. Əsassız pul tələb etmə faktları var. İmtahanlar tamamilə fərqli formatda təşkil edilməlidir ki, məzunlar əmək bazarının tələbinə cavab verən kadrlara çevrilə bilsinlər".

**Təhsil eksperti Adil Vəliyevin fikrincə, sertifikasiya imtahanında suallar MİQ imtahanına nisbətən daha asan idi. Onun sözlərinə görə, narazılıqlar bütün fənlər üzrə var:** "Universitetə qəbul olan tələbə ixtisası üzrə hazırlaşır, amma MİQ imtahanında iştirak etmək istədikdə ali təhsil proqramından çox sual düşmür. Bu səbəbdən də məzunlar fərqli kurslara müraciət etməyə məcbur olurlar. MİQ imtahanlarında yüksək bal toplayan müəllimlərə diqqət etsək, görərik ki, bir neçə il öncə məzun olanlardır, yəni xeyli müddət hazırlaşıblar. Düşünürəm ki, çıxış yolu kimi pedaqoji təhsil üzrə keçilən dərslər MİQ imtahanına uyğun olmalıdır. Ya da əksinə".

**O ki qaldı universitetlərdə semestr imtahanlarına, ekspert hesab edir ki, bu məsələdə müəllimin qiymətləndirməsi önəmlidir:** "Bəzi tələbələr var ki, haqlarını bilmirlər, imtahandan kəsiləndə, yaxud az bal toplayanda bununla razılaşırlar. Tələbələrin hüquqları var, baldan razı deyilsə, apelyasiya şikayəti verə, hətta başqa müəllimin yoxlamasını tələb edə bilər. Bəzi universitetlər sualları öncədən toplu şəkildə, yaxud mövzular şəklində verirlər. Mən mövzular üzrə hazırlaşmağın tərəfdarıyam".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 123 (8259) 20 iyul 2023

# "Azərsu"nun ziyanı haradan qaynaqlanır - su heç də ucuz deyil, amma...

## Qurumun qazanmaq əvəzinə itirməsinin səbəbləri; **Anar Cəbrayıllı:** "Zərərin əsas səbəbi amortizasiya xərcləridir"

**İri dövlət şirkətlərinin onilliklər boyu zərərlə işləməsi Azərbaycanda adi qarşılanır: cəmiyyət xüsusilə kommunal sektorda inhisarçı mövqedə olan bu qurumların daim zərərdidə olmasına təəccüblənmir. Belə qurumlardan biri də "Azərsu" ASC-dir. Ölkə ərazisində içməli su və kanalizasiya təchizatı ilə məşğul olan qurumun illərlə yığılan zərəri 8 milyard manatı keçib.**

ASC-nin açıqladığı 2022-ci il üzrə maliyyə hesabatlarına əsasən, ötən ili "Azərsu" 180 milyon 514 min manat xalis zərərlə başa vurub. Bu, 2021-ci illə müqayisədə 3,1 dəfə azdır. Lakin səhmdar cəmiyyətin yığılmış zərəri 2,3 faiz artaraq 8 milyard 36,2 milyon manata çatıb.

Hesabatdan aydın olur ki, ötən il "Azərsu"nun içməli su və kanalizasiya xidmətinin satışından gəlirləri 278,894 milyon manat (əvvəlki ilə nisbətən 6,1 faiz çox), satışlarının maya dəyəri 134,225 milyon manat (4,3 faiz çox), inzibati xərcləri 43,175 milyon manat (50,1 fazi çox), satış və paylanma xərcləri 159,368 milyon manat (8,7 faiz çox), digər əməliyyat xərcləri 132,394 milyon manat (4,2 dəfə az), məzənnə fərqindən gəliri 9,705 milyon manat (5,9 faiz az), digər gəlirləri 2,394 milyon manat (13,5 dəfə az), maliyyə xərcləri 2,27 milyon manat (34,2 faiz az), icarə öhdəlikləri üzrə faiz xərcləri 53 min manat (11,7 faiz az), mənfəət vergisi ödəmələri isə 22 min manat (27,2 dəfə az) təşkil edib.

Ötən il "Azərsu" "Suez Group" şirkətinə olan 4,3 milyon manatlıq borcunu dövlət büdcəsi hesabına qaytarıb. 2022-ci ildə ASC həmçinin Dünya Bankına olan borcunu bağlayıb. Maliyyə hesabatından aydın olur ki, "Azərsu"nun faiz hesablanan kredit və borc öhdəliyi bu il yanvarın 1-nə 255,329 milyon manat təşkil edib. Bu isə ötən il yanvarın 1-i ilə müqayisədə 1,8 faiz azdır.

Hesabat dövründə "Azərsu" Dünya Bankına qalan 3,843 milyon manat borcunu tam bağlayıb. Lakin səhmdar cəmiyyətinin Maliyyə Nazirliyinə borcu 8,3 faiz artaraq 160,813 milyon manat, Almaniyanın dövlət bankı KfW-yə borcu 10,1 faiz azalaraq 52,759 milyon manat, Fransanın korporativ və investisiya bankı "Natixis"ə borcu 18,4 faiz azalaraq 26,507 milyon manat, Asiya İnkişaf Bankına (ADB) borcu isə 7,9 faiz azalaraq 15,25 milyon manata bərabər olub.

"Azərsu" Maliyyə Nazirliyindən borcu faizsiz və illik 1 faizlə, KfW və Dünya Bankından illik 0,75 faizlə, "Natixis" və ADB-dən isə illik 2,45 faizlə götürüb.

Bu il iyulun birinə "Azərsu"nun abonentlərinin sayı 4,5 faiz artmaqla 1 milyon 792 min 731-ə çatıb. Bunların 1 milyon 721 min 644-ü (96 faiz) əhali, 71 min 87-si isə qeyri-əhali qrupu abonentləridir. Son illərdə Azərbaycanda su və kanalizasiya tarifləri tez-tez artırılır. Hər dəfə də Tarif Şurasının izahatında tariflərin xidmət keyfiyyətinin artırılması və ASC-nin maliyyə imkanlarının genişləndirilməsi məqsədilə artırıldığı bildirilir. Sonuncu belə qərar 2021-ci ilin yanvarında qəbul edilib. Nəticədə bir kubmetr su təchizatının tarifi ƏDV daxil olmaqla əhali üzrə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üçün 70 qəpik, digər inzibati ərazi vahidləri üzrə 60 qəpik, tullantı sularının axıdılması xidmətinin tarifi isə ölkə üzrə bir kubmetr üçün 30 qəpik səviyyəsində təsdiq olunub.

Bu qərardan sonra gözləntilər vardı ki, içməli su təminatının keyfiyyəti yaxşılaşmaqla bərabər, "Azərsu" artıq ziyanla, dotasiya ilə işləməyəcək, qazanc əldə edən quruma çevriləcək. Lakin göründüyü kimi, ASC-nin zərəri də dəyişkənlik nümayiş etdirir. Məsələn, 2020-ci ili 323 milyon 222 min manat xalis zərərlə bağlayan "Azərsu" 2021-ci ildə xalis zərərinin məbləğini 552 milyon 230 min manata çatdırıb. 2021-ci ildə "Azərsu" şirkətinin cəmi gəlirləri 113 milyon 406 min manat, cəmi xərcləri isə 342 milyon 414 min manata bərabər olub.




"Azərsu"nu zərərdən çıxmağa qoymayan səbəblər hansılardır? Niyə təqdim etdiyi məhsul və xidmətin dəyəri artdığı bir vaxtda ASC zərərdən çıxa bilmir?

Qurumun özünün zərərin azaldılması, gəlirə çıxılması ilə bağlı hansısa plan və ya strategiyası varmı?

**Sualları cavablandıran ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı qurumun zərərinin ildən-ilə azaldığını deyir:** "Ötənilki hesabatdan da görünür ki, zərərimiz 3,1 dəfə azalıb. Faktiki fəaliyyətdən bizim hər hansı zərərimiz yoxdur: əməliyyat gəlirlərimiz əməliyyat xərclərimizi tam bağlayır. Əsas zərər balansımızda olan aktivlərin amortizasiyasından hesablanan zərərdir. Bildiyiniz kimi, "Azərsu" çox nəhəng aktivlərə malikdir: anbarlar, qurğular, ötürücü kəmərlər, nasos stansiyaları və sair kimi çox böyük aktivlərimiz var. Elə zərər də bu aktivlərin amortizasiya xərclərinə görə yaranır. Beynəlxalq uçot standartlarının tələbi budur ki, aktivlərin amortizasiya xərcləri də zərər kimi hesablanır. Bizim illik zərərimiz məhz bu maddə üzrə yaranır. Amortizasiya xərcləri nəzərə alınmazsa, biz hələ cüzi də olsa, ötən ili gəlirlə başa vurmuş olarıq".

**İqtisadçı-ekspert Rövşən Ağayev də "Azərsu" ASC-nin zərərdə olmasında amortizasiya xərclərini əsas səbəb kimi qeyd edir. Onun sözlərinə görə, çox qısa müddət əvvəl içməli suyun qiyməti iki dəfəyə yaxın artırılıb:** "Həmin ildə "Azərsu" ASC faktiki olaraq iki dəfə yüksək qiymətlə çalışıb. Qiymət artımına uyğun olaraq iki dəfəyə yaxın, təxminən 70 faiz satışdan daxilolmalar artıb. Amma bu artımlar, qurumun xərclərinin azalması ilə müşayiət edilməyib. Məsələ burasındadır ki, maliyyə hesabatları dərindən analiz edildikdə görünür ki, qurumun zərərlə işləməsində əsas səbəblərdən biri əsas vəsaitlərin, əsas fondların dəyərsizləşməsi ilə bağlı xərclərdir. Mən demirəm bu, həmişə korrupsiya ilə bağlı olur. Amma mütəxəssislərin, auditorların gəldiyi qənaət budur ki, əsas vəsaitlərin dəyərsizləşməsi bir çox hallarda korrupsiya risklərinin yüksək olması ilə bağlı olur.

**Rövşən Ağayev:** "Əsas vəsaitlərin dəyərsizləşməsi bir çox hallarda korrupsiya risklərinin yüksək olması ilə bağlı olur"

Biri var əsas vəsaitlərin köhnəlməsi, bu başqa məsələdir, biri də var dəyərsizləşməsi. Dəyərsizləşmə odur ki, tutaq ki, əsas fondlar istismara veriləndə qiyməti şişirdilir, burda korrupsiya amili rol oynayır. Məsələn, 3 manata alınmalı olan boru 5 manata alınır və s. Bir müddətdən sonra auditorlar qiymətləndirmə aparanda həmin əsas fondları ədalətli dəyəri ilə, qiymətləndirmə aparılan dövrün bazar dəyərinə qiymətləndirirlər. Bu halda isə təbii ki, əgər əvvəl şişirdilmiş qiymətlə alınıbsa, sonrakı dövrdə artıq ədalətli dəyərlə qiymətləndiriləndə ortada yaranan fərq dəyərsizləşmə kimi qeydiyyata alınır. Bu da avtomatik olaraq xərcə çevrilir. Bu xərc isə mənfəətin azalmasına, hətta şirkətin zərərə çıxmasına səbəb olur. Bir daha deyirəm, peşəkar auditorların, maliyyəçilərin, iqtisadçıların ortaq rəyi budur ki, xüsusən dövlət şirkətlərində dəyərsizləşmə hesabına zərər böyüyürsə, bu, ciddi şəkildə şəffaflıq problemi ilə bağlıdır. Yəni "Azərsu" ASC şəffaf şirkət deyil".

**R.Ağayevin sözlərinə görə, dövlət şirkətlərinin ayrıca satınalma hesabatı olmalıdır. Bütün satınalmalar açıq, şəffaf, bütün ictimaiyyətin izləyə biləcəyi şəkildə həyata keçirilməlidir:** "Dövlət şirkətlərinin aldıqları mal və xidmətlərin dəyərini hər kəs araşdıranda tapa bilməlidir. Yəni "Azərsu" layihələr həyata keçirirsə, bizim o layihələr çərçivəsində aldığı mal və xidmətlərin qiymətini belə öyrənmək, korrupsiya riskinin olub-olmamasını araşdırmaq imkanımız olmalıdır".

**R.Ağayevin fikrincə, dövlət şirkətlərini zərərdən çıxarmağın əsas yolu onların ən azı bir hissəsinin özəlləşməsindən keçir:** "Çox yaxşı olar ki, dövlət özü suyun sahibi kimi qalsın, amma onun paylanması özəl şirkətlərə keçsin. Yaxud dövlət mülkiyyətçi kimi qalsın, uzunmüddətli idarəetməyə versin. Özəl sektor heç vaxt bir cibindən götürüb, başqa cibindən oğurluq eləmir. Amma dövlət şirkətlərində bu problem həmişə olub. Sovet dövründən qalma psixologiya var ki, dövlətindirsə oğurlaya bilərəm. Ona görə dövlət şirkətlərinin dövlətsizləşdirilməsi - ya özəlləşmə, ya da uzunmüddətli idarəetməyə verilmə formasında - islahatları aparılmasa, vəziyyət belə davam edəcək. Dövlət şirkətləri zaman-zaman bəyan edəcək ki, xərclərimizi ödəyə bilmirik, ziyanımız var, qiymətlər artırılsın. Qiymətlər artırılacaq, amma nəticə dəyişməyəcək. Necə ki, 2021-ci ildə suyun tarifləri artdı, amma həmin il "Azərsu"nun zərərinin həcmi azalmadı, əksinə, artdı"(AFN.az).

Onu da qeyd edək ki, iri dövlət şirkətlərinin fəaliyyətində səmərəliliyin artırılması da uzun illərdir müzakirə mövzusu olaraq qalır. Müstəqil ekspertlər bu problemin həllini yeganə yol kimi həmin şirkətlərin özəl əllərə idarəetməyə verilməsində görürlər. Lakin hökumət bu istiqamətdə hansısa addımlar atmağa tələsmir...

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**


Elçin Əmirbəyov

# Prezidentin xüsusi nümayəndəsinin vəzifələri nə olacaq? - PA-da yenilik

## Elman Nəsirov: "Daha çox xarici siyasət məsələləri ilə əlaqədar xüsusi tapşırıqlar icra edəcəyi daha inandırıcı görünür"
## Fazil Mustafa: "Təcrübəli, sınaqlardan çıxmış bir şəxsin..."

**Prezident Administrasiyasının strukturunda dəyişiklik olunub. Belə ki, Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi vəzifəsi təsis edilib. Bu dəyişiklik Prezident Administrasiyasının saytında da öz əksini tapır.**

Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə iyulun 18-də Elçin Əmirbəyov həmin vəzifəyə təyin edilib.

Buna qədər E.Əmirbəyov Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi vəzifəsini tuturdu.

Elçin Əmirbəyov uğurlu və reputasiyası təmiz məmurdur, beynəlxalq siyasəti kifayət qədər mükəmməl bilir. Vətən müharibəsi dövründə beynəlxalq arenada mühüm dövlət görəvlərini yerinə yetirib.

Onun dosyesini təqdim edirik:

Elçin Oktyabr oğlu Əmirbəyov 1972-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 1988-ci ildə Bakı şəhərinin 164 nömrəli orta təhsil məktəbini qızıl medalla bitirib.

1992-ci ildə Azərbaycan Dillər Universitetinin ingilis-fransız tərcüməçilik fakültəsini fərqlənmə diplomu ilə bitirib.

İlk əmək fəaliyyətinə 1991-ci ildə Azərbaycan Xarici İşlər Nazirliyində referent-tərcüməçi kimi başlayıb. 1992-1993-cü illərdə Xarici İşlər Nazirliyinin Beynəlxalq Təşkilatlar İdarəsinin attaşesi və daha sonra üçüncü katibi vəzifələrində çalışıb. 1993-cü ildə o, Fransada Paris Beynəlxalq Dövlət İdarəçiliyi İnstitutunda diplomatik təhsil alıb.

Daha sonra 1994-cü ildə Almaniyanın Oberammerqau şəhərində NATO Məktəbində (NATO School) və İtaliyanın Roma şəhərində NATO-nun Müdafiə Kollecində (NATO Defense College) xüsusi təlimlər keçib.

1995-1997-ci illərdə Nyu-Yorkda Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyində ikinci katib olaraq fəaliyyət göstərib.

İlk uzunmüddətli xarici ezamiyyətdən Xarici İşlər Nazirliyinə geri döndükdən sonra o, ardıcıl olaraq 1998-ci ildə Beynəlxalq təşkilatlar İdarəsində birinci katib vəzifəsində, 1999-cu ildə həmin idarənin regional və beynəlxalq təhlükəsizlik şöbəsinin müdiri vəzifələrində çalışıb.

2000-ci ildə ABŞ-da Harvard Universitetinin Kennedy adına İdarəçilik Məktəbində beynəlxalq və milli təhlükəsizlik üzrə xüsusi kursu bitirib. 2001-2003-cü illərdə Brüsseldə (Belçika Krallığı) Azərbaycan Respublikasının NATO-dakı nümayəndəliyinin siyasi məsələlər üzrə müşaviri vəzifəsində çalışıb.

2003-2004-cü illərdə Nyu-Yorkda (ABŞ) Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyində müşavir olaraq çalışıb.

2004-cü ildən 2010-cu ilədək Cenevrədə BMT və digər beynəlxalq təşkilatlarda Azərbaycanın daimi nümayəndəsi kimi fəaliyyət göstərib, 2005-2010-cu illərdə həmçinin Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı fövqəladə və səlahiyyətli səfiri vəzifələrini icra edib.

Cenevrədə çalışdığı zaman o, 2008-2009-cu illərdə BMT-nin İnsan Hüquqları Şurasının Vitse-prezidenti və eyni zamanda məruzəçi qismində fəaliyyət göstərib. Həmçinin 2007-ci ildə BMT-nin Cenevrədəki Ofisində İslam Əməkdaşlıq Təşkilatının (İKT) üzv dövlətlərinin səfirlər qrupuna bir il ərzində sədrlik edib. Bundan əlavə, 2008-ci ildə səfir Elçin Əmirbəyov BMT-nin Cenevrədəki Ofisində Şərqi Avropa regional qrupuna daxil olan üzv-dövlətlərin səfirlər qrupuna sədrlik edib.

Bununla yanaşı, 2005-2017-ci illərdə Azərbaycanın Müqəddəs Taxt-Tacda ilk səfiri qismində çalışıb. Vatikanda çalışdığı zaman 2008-ci ildə Roma Papası Onaltıncı Benedikt (Pope Benedict XVİ) tərəfindən Müqəddəs Gregori ordeni ilə təltif edilib.

Həmçinin 2006-2010-cu illərdə Azərbaycan Respublikasının Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsini icra edib.

E.Əmirbəyov 6 yanvar 2010-cu ildən 23 iyun 2017-ci ilədək Azərbaycan Respublikasının Fransa Respublikasında və eyni zamanda Monako Knyazlığında fövqəladə və səlahiyyətli səfiri kimi fəaliyyət göstərib.

Elçin Əmirbəyov fövqəladə və səlahiyyətli səfir diplomatik dərəcəsinə malikdir. 24 iyun 2017-ci il tarixindən etibarən Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi vəzifələrini icra edirdi.

İngilis, fransız və rus dillərini bilir.

Dövlət qulluğunda birinci dərəcəli dövlət müşaviri ixtisas dərəcəsi var (2023).

Evlidir, iki övladı var.

E.Əmirbəyovun təyinatından sonra əsas bir sual yaranıb. Onun Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi kimi vəzifələri nələr olacaq?

**YAP-çı deputat Elman Nəsirov mövzu ilə bağlı danışarkən dedi:** "Ölkə Prezidenti, cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Elçin Əmirbəyovun bu təyinatından sonra ən çox diqqət cəlb edən sual bununla bağlıdır ki, o, hansı səlahiyyətləri icra edəcək, hansı vəzifələri yerinə yetirəcək. Adından göründüyü kimi, söhbət məhz ölkə başçısının xüsusi tapşırıqlar üzrə nümayəndəsi olmaqdan gedir, yəni Elçin Əmirbəyov cənab Prezidentin xüsusi tapşırıqlarını icra edəcək. Mənə elə gəlir ki, bu məsələni daha çox xarici siyasət aspektindən qiymətləndirmək doğru olardı. Çünki Elçin Əmirbəyov məhz beynəlxalq sahədə ixtisaslaşmış mütəxəssisdir. Dünyanın ən məşhur Harvard Universitetinin məzunudur. Xarici dilləri də mükəmməl bilir. Fransada səfirimiz olub. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın köməkçisi kimi çalışıb. Bütün vəzifələrdə özünü istedadlı kadr kimi göstərib. Cəmiyyətdəki imici də müsbətdir. Bütün bunlar hesab edirəm ki, imkan verəcək ki, o, Prezidentin xüsusi nümayəndəsi kimi bu vəzifəni uğurla icra etsin. Mənə elə gəlir ki, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesində də onun xüsusi tapşırıqları icra etməsi daha məntiqli görünür. Burada digər sahələr də istisna deyil. Sadəcə, mənə elə gəlir ki, daha çox xarici siyasət məsələləri ilə əlaqədar xüsusi tapşırıqlar icra edəcəyi daha inandırıcı görünür. Onun peşəkarlığı, keyfiyyəti, istedadı imkan verir ki, cənab Prezidentin müəyyən etdiyi xüsusi tapşırıqları ləyaqətlə yerinə yetirsin".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa ölkə rəhbərinin bir sıra vacib məsələlərin müzakirəsi üçün belə bir qərara ehtiyac duyduğunu düşünür:** "Bu məsələ ilə bağlı açıqlama vermək üçün xüsusi tapşırıqlar üzrə təmsilçinin əsasnaməsi ilə tanış olmaq lazımdır. Açığı, mən də bu əsasnamə ilə tanış deyiləm. Ona görə də ona hansı səlahiyyətlərin verildiyi barədə bilgim yoxdur. Amma hesab edirəm ki, yəqin Prezident bunu daha çox Qarabağ və digər mühüm, dövlət əhəmiyyətli məsələlər üzərində belə bir personanın onun adından danışıqlar aparmasını vacib hesab etdiyinə görə bu qərarı qəbul edib. Bu da bütün ölkələrdə olub və bu dövlətlərdə bütövlükdə prezidenti təmsil edən əlahiddə vəziyyətlərdə onun tapşırıqlarını həyata keçirən şəxslərin fəaliyyət göstərməsi normal qəbul olunan haldır. Ona görə də yəqin bu istiqamətdə çalışmalar olacaq. Amma hər halda, belə bir əsasnamə olarsa, orada başqa müddəalar da göstərilə bilər. Onu biləndən sonra fikir söyləmək olar. Amma görünən budur ki, daha əlahiddə dövlət əhəmiyyətli məsələlərin müzakirəsi üçün həm də təcrübəli, sınaqlardan çıxmış bir şəxsin, xüsusilə Qarabağ məsələsində kifayət qədər səmərəli işlər görmüş bir şəxsin təyin olunması, hər halda, ondan xəbər verir ki, daha ciddi, yaxınlarda dövlət əhəmiyyətli məsələlər müzakirə olunacaq. Və burada da təmsilçilik forması bu cür məqsədəuyğun sayılıb".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# 58 xarici jurnalistin adı "qara siyahı"dan çıxarıldı




**Xarici İşlər Nazirliyi (XİN), Azərbaycan Mətbuat Şurası və Medianın İnkişafı Agentliyi (MEDİA) Azərbaycan ərazilərinə qanunsuz səfər etmiş bəzi xarici media nümayəndələrinin "qara siyahı"dan çıxarılması ilə bağlı bəyanat yayıb.**

Musavat.com "Report"a istinadən xəbər verir ki, bəyanat mətnini XİN-də keçirilən brifinqdə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi, mətbuat katibi Ayxan Hacızadə oxuyub.

Bəyanatda 58 nəfərin adının "qara siyahı"dan çıxarıldığı bildirilir.

A.Hacıyev bildirib ki, hər il onlarla şəxs adlarının "qara siyahı"dan çıxarılması üçün Azərbaycan hökumətinə rəsmi üzrxahlıq məktubu ünvanlayır:

"Uyğun olduğu təqdirdə onların adları "qara siyahı"dan çıxarılır".

YENİ MÜSAVAT
N 123 (8259) 20 iyul 2023

# Putinin Ərdoğandan küskünlüyü nə qədər davam edəcək - Kreml nə istəyir...

**Getdikcə zəifləyən, Ukrayna cəbhəsində dalana dirənən, sosial-iqtisadi problemlər, sanksiyalar altında çabalayan Rusiya vəziyyətdən çıxış yolları axtarmaq, tərəfdaşlarını çoxaltmaq əvəzinə sanki tarana gedir. Son illərdə bütün dünya Rusiyanın üzərinə gəldiyi halda, Türkiyə və Azərbaycan onunla gerçək qonşu, strateji tərəfdaş, bir çox məsələlərdə müttəfiq ölkə kimi davranıb.**

## Elşən Mustafayev: "Hazırda əsas rıçaqlar Ankaranın əlindədir"
## Kənan Rövşənoğlu: "Ərdoğan əlində Putini razı salacaq ciddi arqumentlər olduğu üçün rahatdır"

Ancaq indi Rusiya Türkiyə və Azərbaycanla münasibətlərində qeyri-səmimilik göstərir. Türkiyə xüsusilə "Taxıl sazişi" məsələsində Ukraynada sülhə nail olmaq üçün kifayət qədər enerji sərf etdi. Təbii, Türkiyənin bu mövqeyi həm də Kremlə dəstək idi.

Ancaq Moskva indi başadüşülməz bir mövqe tutub. Qarabağla bağlı proseslərdə arzuolunmaz münasibət göstərir, Ərdoğanın Putinlə təmasa keçmək niyyətinə qeyri-adekvat reaksiya bildirilir.

Ərdoğan iyulun 17-də bəyan etmişdi ki, "Taxıl sazişi"nin yenidən qüvvəyə minməsi üçün Rusiya Prezidenti Vladimir Putinlə görüşməyə çalışacaq.

Kremlin sözçüsü Dmitri Peskov isə iyulun 18-də açıqlama verdi ki, Putin hələ türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla təmasları planlaşdırmır.

Kremlin sözçüsü bunu Rusiyanın "Taxıl sazişi"ndən çıxmasından və digər hadisələrdən sonra Putinin qrafikində Ərdoğanla təmasların olub-olmaması ilə bağlı sualı cavablandırarkən deyib.

Peskov həmçinin deyib ki, "Taxıl sazişi"ni Rusiyanın iştirakı olmadan davam etdirmək cəhdləri risklərə gətirib çıxaracaq, çünki taxıl dəhlizi müharibə zonasına bitişikdir və hətta Kiyevin özü də bu dəhlizdən hərbi məqsədlər üçün istifadə edir...

Rusiya niyə belə aqressiv, yaxud da küskün davranır? Müşahidələr onu deməyə əsas verir ki, Rusiyanın Türkiyəyə münasibətdə fərqli davranışları, yaxud küskünlüyü mövcuddur. Ekspertlər isə deyir ki, burada yanlış varsa da, bu yanlış və yaxud uyğunsuz tələblər Rusiyaya aiddir. Türkiyə bu məsələdə hansısa suç sahibi deyil.

nasibətlərinin olmasına baxmayaraq Türkiyə Rusiya ilə müxtəlif səviyyəli münasibətlərini həmişə saxlamağa üstünlük verirdi. Rusiya da eyni ilə dediyim arxayınlıqdan, həm də regionun böyük bir dövlətinin özünə qarşı olan olmalı idi. Hazırda Rusiyanın durumu nə Türkiyəyə, nə də Azərbaycana təzyiq etməyə imkan verməyəcək. İndiki zamanda Türkiyə ilə münasibətlərin gərginləşməsinin Rusiya üçün ağır nəticələri ola bilər. Hadisələrin gedişin-




Elə isə maraqlıdır, Rusiya nə istəyir? Küskünlüyünün, iddialarının səbəbi nədir? Və bu küskünlük, soyuqlaşma nə vaxtadək, haradək davam edə bilər?

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev Rusiya siyasətində ciddi tələtümlərin yaşandığını bildirdi:** "Son vaxtlar Rusiyanın sağa-sola aqressiv davranması, kəskin bəyanatlar səsləndirməsi gündəmdən düşmür. Hazırda Türkiyə ilə münasibətlərində soyuqluğa doğru inkişafın getdiyini gördükdə Rusiya siyasətinin içində ciddi problemlərin olduğunu anlamaq çətin deyil. Ukraynada müharibə uzandıqca, nəticə əldə edilmədikcə və ən əsası vaxtilə əldə etdiyi mövqeləri itirməyə başladıqca rəsmi Kremlin adekvat olmayan addımlarının şahidi olacağıq. Türkiyə ilə bağlı yaranmış gərginliyin arxasında da məhz Rusiyanın əvvəlki kimi özünə arxayın olmaması durur. Suriya, Ukrayna və digər bir çox problemlərə fərqli mübeynəlxaq kampaniyada iştirak etməməsi səbəbindən bu əlaqələrin davam etdirilməsində bir çox məsələlərdə ənənəvi mövqelərindən geri çəkilməyə məcbur idi. Amma son aylar ölkə daxilində olan narazılıqlar, Priqojin məsələsindən sonra Putinin nüfuzunun kəskin düşməsi, xaricdən olan təzyiqlərin daha da güclənməsi, Ukrayna cəbhəsindəki uğursuzluqlar rəsmi Moskvanı gərgin vəziyyətə salmışdı. Belə vəziyyətdə isə o, adekvat olmayan addımlar atmağa başlamışdı. Türkiyənin İsveçin NATO üzvlüyünə razılıq verməsini təsadüfi hesab etmək olmaz. Rəsmi Ankara yaxşı bilir ki, belə addımların atılması Türkiyə ilə Rusiya arasında soyuqluq yaradacaq və paralel olaraq bu, Azərbaycanla, Qarabağla bağlı proseslərdə özünü göstərəcək.. Amma Rusiyanın əvvəlki kimi özünü aparmaması, xüsusilə bir çox məsələlərə münasibətdə siyasətini dəyişməsi və Türkiyədən hadisələrlə bağlı konkret mövqe istəməsinin cavabı bu

dən belə görünür ki, proseslərin bu şəkildə davam etməsi ilin sonuna qədər Rusiyanın həm Ukrayna məsələsində məğlubiyyətinə, həm də iqtisadi çöküşünə apara bilər. Yəni hətta Türkiyəyə qarşı "pomidor, turist embarqosu" qoysa belə, təsirləri az və qısamüddətli olacaq. Lakin düşünürəm ki, rəsmi Kreml yaxın günlərdə heç nə olmamış kimi yenidən Türkiyə ilə əvvəlki səviyyəli əməkdaşlıqlarının bərpası ilə bağlı addımlar atmağa başlayacaq və bu, paralel olaraq Qarabağdakı situasiyaya da təsir edəcək. Hadisələrin hansı axarda getməsinə qərarı isə Türkiyə verəcək. Yəni hazırda əsas rıçaqlar Ankaranın əlindədir".

**Tanınmış siyasət yazarı Kənan Rövşənoğlu bu prosesdə Ərdoğanın çox rahat şəkildə davrandığını düşünür**: "Rusiyanın "taxıl dəhlizi" sazişindən çıxması gözlənilən idi. Xüsusən də Zelenskinin NATO sammiti ərəfəsində Türkiyəyə gəlməsi, geri qayıdarkən "Azov" batalyonu komandirlərini də aparmasından sonra rusların 17 iyulda sazişi uzatmayacağı və ya ən azı bu mövqeyi nümayiş etdirməsi gözlənilirdi. Türkiyə sammit ərəfəsi, ümumiyyətlə, seçkilər və sonrasında Qərbə doğru ciddi gedişlər etdi. Son hadisənin isə Moskva-Ankara münasibətlərində soyuqluq yaradacağı gözlənilən idi. Lakin görünən odur ki, bu prosesdə, anadolular demişkən, başqa hesablar var. Məsələn, Türkiyə prezidenti iyulun 14-də jurnalistlərə açıqlamasında "taxıl dəhlizi" mövzusunda Putinlə həmfikir olduqlarını, iyulun 17-də, yəni Moskva "taxıl dəhlizi" sazişindən çıxdığını elan etdikdən sonra Ərdoğan yenidən bir daha Putinin bu humanitar dəhlizin davamında istəkli olduğuna inandığını dedi. Türkiyə prezidenti bildirdi ki, körfəz səyahətindən qayıtdıqdan sonra Putinlə danışacaq və "dəhlizin" bərpasına çalışacaq. XİN başçısı Hakan Fidanın bu mövzuda Lavrovla danışıqlar aparacağını bildirən Türkiyə prezidenti Putini avqustda Türkiyəyə dəvət edəcəyini və burada "taxıl dəhlizi" mövzusunu üzbəüz müzakirə edəcəyini deyib. Deyib ki, Putini avqustda Türkiyəyə dəvət edəcək, burada "taxıl dəhlizi" müzakirə edib müsbət qərar alacaqlar. Düşünürəm ki, Ərdoğan əmindir və ya çox inanır ki, Putinlə dil tapacaq. Bu səbəbdən də rahat danışır. Məsələ ondadır ki, "taxıl dəhlizi" sazişinin pozulması neqativ hadisə olsa da, sazişin pozulmasından sonra BMT də daxil olmaqla, dünyanın yeganə ümid yeri Ərdoğandır. Yəni əgər "taxıl dəhlizi" sazişi pozulmasaydı, güman ki, Ərdoğanın Rusiyaya və ya Putinin Türkiyəyə səfəri ciddi qınaq və etirazlarla müşayiət olunacaqdı. Ancaq indi BMT baş katibi də daxil olmaqla, bir çox nüfuzlu dövlət və siyasət adamları Ərdoğanın Putinlə görüşüb sazişi bərpa etməsini dəstəkləyir. Yəni dolayısı ilə "taxıl dəhlizi" sazişinin bərpası həm də Türkiyə və Rusiya arasında danışıqlar və əlaqələrin qurulmasını beynəlxalq səviyyədə legitimləşdirir. Güman ki, Ərdoğan əlində Putini razı salacaq ciddi arqumentlər olduğu üçün rahatdır və Rusiya prezidentini razı salacağını deyir. Azərbaycanla bağlı vəziyyət fərqlidir. Ərdoğanın Rusiya ordusunun 2025-ci ildə Qarabağdan çıxacağı barədə bəyanatı düşünürəm ki, bizim üçün risklidir. Çünki ruslar bu bəyanatdan narahat olaraq daha tez hərəkətə keçdilər. Rusiya aydın məsələdir ki, Qarabağdan çıxmamağa çalışacaq və hazırda əlində olan yeganə kartdan - Qarabağdakı separatçı ermənilərdən istifadə edir. Türkiyənin Cənubi Qafqaz mövzusunda Rusiya ilə növbəti dəfə razılaşacağını isə zaman göstərəcək".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Rusiya "Taxıl sazişi"nin müzakirəsinə qayıtması üçün şərtlərini açıqlayıb

**BMT Rusiya ilə taxıl və gübrələrə dair memorandumu yerinə yetirərsə, Rusiya "Taxıl sazişi"nin müzakirəsinə qayıda bilər.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib

Onun sözlərinə görə, memorandumu həyata keçirmək üçün BMT-nin daha üç ay vaxtı var.

"Yalnız bu halda Moskva sövdələşməni nəzərdən keçirməyə qayıdacaq", - Rusiya XİN sözçüsü vurğulayıb.

# Hansı partiyalar qeydiyyata alına bilər? - 27 təşkilatdan neçəsi özünə güvənir....

## Tanınmış müxalifət partiyalarından prosesin gedişatı barədə açıqlamalar; “Bütün partiyaların reyestrdən keçəcəyini gözləmək sadəlövhlük olar”

**Yeni “Siyasi partiyalar haqqında” Qanun qüvvəyə mindikdən sonra siyasi arenada ələnmə prosesi gedir. Yeni qanuna əsasən partiyanın azı 5.000 üzvü olmalıdır və onlar üzvlərinin reyestrini Ədliyyə Nazirliyinə təqdim etməlidirlər.**

Bununla əlaqədar nazirlik tərəfindən normativ hüquqi aktların yeni qanuna uyğunlaşdırılması istiqamətində və digər aidiyyəti tədbirlər həyata keçirilib.

Nazirliyin yaydığı açıqlamada bildirilir ki, qanun qüvvəyə mindiyi tarixdən ötən müddətdə 31 partiya öz təşəbbüsü ilə ləğv olunmaları barədə bəyanat verib. Bəyanatlarda bu qərarların verilməsi Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ölkədə həyata keçirilən hərtərəfli uğurlu islahatlar, təşviq olunan siyasi dialoq, bərqərar olunmuş siyasi sabitlik və milli həmrəylik mühiti, həmçinin Vətən müharibəsində əldə olunmuş Qələbə nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə əlaqələndirilib. Digər 27 siyasi partiya isə üzvlərinin adı, soyadı, atasının adı, doğulduğu tarix, qeydiyyat ünvanı, qeydiyyatda olduğu partiyanın yerli təşkilatı və əlaqə telefon nömrəsini əks etdirən reyestrini Ədliyyə Nazirliyinə təqdim edib.

Nazirlik tərəfindən “Siyasi partiyalar haqqında” Qanuna əsasən partiyaların üzvlərinin reyestrinin qanunvericiliyin tələblərinə uyğunluğunun yoxlanılması zamanı onların bəzilərində bir sıra qüsurlar, o cümlədən - üzvləri olmayan, vəfat etmiş şəxslərin reyestrə daxil edilməsi, bəzi şəxslərin adlarının təkrarlanması və sair müəyyən olunub.

Bununla bağlı partiyalara müvafiq məlumat verilib, reyestrdə aşkar olunmuş çatışmazlıqların qanunla müəyyən edilmiş müddətdə aradan qaldırılmasının zəruriliyi diqqətə çatdırılıb.

Eyni zamanda Ədliyyə Nazirliyi tərəfindən bu sahədə tədbirlər davam etdirilir və partiyalara müraciət edilərək qüsurların aradan qaldırılması üçün lazımi yardımın göstərilməsi məqsədilə onlarla görüşlərin keçirilməsinə hazır olduğu bildirilir.

Nəzərə çatdıraq ki, hazırda nazirliyə təqdim edilmiş siyahılardakı üzvlərin həqiqiliyi yoxlanılır. Bəzi təşkilatların təqdim etdikləri siyahının reallığı əks etdirmədiyi də üzə çıxıb.

Onlara yenidən üzvlərini təqdim etmək üçün möhlət verilirmi? Bu prosesin sonunda qeydiyyat üçün müraciət etmiş 27 partiyadan neçəsinin qeydiyyata alınması ehtimalı var? Hansı partiyalar özlərinə əmindir? Gedişat siyasi arenaya nə vəd edir?




**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn “Yeni Müsavat”a bildirdi ki, artıq 1 həftəyə yaxındır AXP üzvləri reyestrinin kütləvi yoxlanması kampaniyası barədə yerlərdən intensiv məlumatlar almağa başlayıblar:** “Yeni qanunda siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün minimum üzv sayının beş minə qaldırılması və onların sərt reyestri normasının ölkədəki mövcud siyasi mühit və şərtlər daxilində sıxışdırma, təqib mexanizmi kimi istifadə olunacağı, haqsız siyasi rəqabət potensialı daşıması kimi dəyərləndirərək, çoxpartiyalılıq və siyasi plüralizmin inkişafına mənfi təsir göstərəcəyini qeyd edərək qarşı olduğumuzu dəfələrlə ifadə etmişik. Lakin bir halda ki, qanun artıq qüvvəyə minmişdir, dəyişdiriləənə qədər həmin qanunla siyasi partiya fəaliyyəti göstərməyi qəbullanırıq demişik və odur ki, nə üçün təqdim etdiyimiz reyestr yoxlanır da demirik. Yeni qanunun özü və onun tətbiqi olaraq bu reyestr yoxlama kampaniyası təbii ki, özü - özlüyündə ən azı bir qrup adamlar tərəfindən təzyiq, hədə-qorxu kimi qavranılsa da hələ ki, yoxlanılanlara kobud təzyiq, qorxutma faktları barədə məlumatlar almamışıq. Anlaşılmaz və məqbul olmayan bu prosesə yerlərdə icra hakimiyyəti, xüsusən Yeni Azərbaycan Partiyası funksionerlərinin cəlb olunması, reyestrin qeyri-ədliyyə şəxslərində olması, yerlərdə "komissiyalar" yaradılması və göndərilməsi, bəzi zəng edənlərin qanunda nəzərdə tutulmayan informasiyaları istəməsi kimi hallardır. Prosesi diqqətdə saxlamaqda davam edirik".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, hər bir partiya öz fəaliyyətini yeni qanuna uyğunlaşdırmalıdır. Yeni qanunda əsas maddələrdən biri də partiya üzvlərinin sayının 5 minə çatdırılması və həmin üzvlərin reyestrinin Ədliyyə Nazirliyinə təqdim olunmasını nəzərdə tutan maddədir:** “AĞ Partiya bu qanun qəbul olunmamışdan öncə yeni üzvlərin qəbul olunması istiqamətində ən ciddi fəaliyyət göstərən partiyalardan biri idi. Yəni bu qanun qəbul olunmasaydı da biz yeni üzvlərin qəbuluna xüsusi diqqəti həmişə ayırmışıq. Çünki istənilən partiyanın çoxlu sayda üzvləri olmalıdır ki, həmin partiya güc sahibi olsun, seçkilərdə iştirak edib nəticə əldə eləyə bilsin, cəmiyyətdə təbliğat apara bilsin. "Siyasi Partiyalar haqqında" yeni qanun qəbul olunanda AĞ Partiyanın artıq 10 min üzvü var idi. Ona görə də qanunun qəbulundan sonra bizim xüsusi kampaniya başlatmağımıza ehtiyac da olmadı. Bir çox partiyalar uzun illər öncədən dövlət qeydiyyatına alınmışdılar və onların siyahılarında yenilənmələr oldu, yeni üzvləri cəlb etdilər. Bu da təbiidir. Biz 10 min 1 nəfər partiya üzvümüzün siyahısını təqdim etmişik. Bizə təqdim olunan anket məlumatlarını təqdim etmişik. Partiya qeydiyyatdan keçərsə, yeni qanuna görə, 6 aydan bir yeni reyestr təqdim etməliyik. Yeni qanuna görə, partiyaların təqdim etdiyi reyestr yoxlanıldıqdan sonra 4500 nəfərdən çox üzvü qalarsa, yenidən qeydiyyata alınır və partiya fəaliyyətini davam etdirir. 4500 nəfərdən az üzv qalarsa, 1 ay vaxt verilir ki, həmin partiya 1 ay ərzində reyestr məlumatlarını dəqiqləşdirib yenidən təqdim eləsin. Əgər ikinci dəfə də üzvlərin sayı 4500-dən az olarsa, Ədliyyə Nazirliyi Apelyasiya Məhkəməsinə partiyanın qeydiyyatının ləğv olunması ilə bağlı müraciət edir. Ehtimallarıma görə, AĞ Partiyanın belə bir problemi olmalı deyil. Çünki bizim siyahımız dəqiqdir. Uzağı 1-2 faiz texniki xəta ola bilər, kiminsə adının hərfi düz yazılmaya, rəqəm düz yazılmaya bilər, yaxud da kimlərsə ona "siz müxalifət partiyasının üzvüsünüzmü" deyə zəng gələndə ehtiyatlanıb mənfi cavab verə bilər. Amma düşünmürəm ki, bizim təqdim etdiyimiz siyahı qeydiyyat üçün yetərli olmasın. Dünən mən REAL Partiyasının təqdim etdiyi siyahı ilə bağlı açıqlanan rəqəmlərə baxdım və bir az da heyrətləndim. Hesab edirəm ki, AĞ Partiyanın belə bir problemi olmayacaq. 27 partiyadan neçəsinin qeydiyyata alınıb-alınmayacağına gəlincə, dəqiq rəqəm söyləmək çətindir. Kimdən soruşsanız deyəcək ki, bizim yetərli sayda üzvümüz var və qeydiyyata alınmalıyıq. Zaman göstərəcək kimlərin qeydiyyata alındığını. Lakin bütün partiyaların reyestrdən keçəcəyini gözləmək sadəlövhlük olar. Köklü partiyalar, aktiv və üzvlərinin sayı yetərli olan partiyalar yəqin ki, qeydiyyatdan daha asan keçəcəklər".

**Bu gedişatın siyasi arenaya nə vəd etməsinə gəlincə, T.Abbaslı qeyd etdi ki, partiyaların çoxluğu və ya azlığı çoxpartiyalı sistemin gələcəyinə dair nəsə deməyə əsas vermir:** “Əsas məsələ partiyalara bu prosesdən sonra yaradılacaq şəraitdir, fəaliyyətləri üçün yaradılacaq imkanlar və imtiyazlardır. O zaman yeni sistemin siyasi arenaya necə təsir göstərdiyini biləcəyik”.

**AMİP sədri Arzuxan Əlizadə isə qeyd etdi ki, siyasi partiyalar haqqında əvvəlki qanuna müvafiq olaraq min nəfər partiya üzvünün olması siyasi partiyanın dövlət qeydiyyatına alınması üçün yetərli hesab olunurdu. Yeni qanun qəbul olunub və yanvarın 11-də Prezident tərəfindən təsdiq olunub. 6 ay müddət verilmişdi ki, siyasi partiyalar yeni qanuna müvafiq olaraq ən azı beş min nəfər üzvünün siyahısını Ədliyyə Nazirliyinə təqdim etsinlər:** “Bu müddət ərzində bir sıra partiyalar öz fəaliyyətini dayandırıb. Hazırda 27 partiyanın Ədliyyə Nazirliyinə qeydiyyat üçün müraciət etdiyi məlumdur. Yoxlama prosesi gedir və məlumatlar var ki, bəzi partiyaların təqdim etdiyi siyahılarda uyğunsuzluqlar aşkarlanıb. Proses davam edir və qanunamüvafiq olaraq bu proses 1 ay müddətində yekunlaşmalıdır. Hansı partiyanın verdiyi siyahılarda dəqiq üzvlərinin sayı beş mindən az olacaqsa, təbii ki, qanunamüvafiq olaraq növbəti 1 ay müddətində siyahını yenidən dəqiqləşdirib təqdim etməlidirlər. Bu bir ayda siyahılarında dəqiqləşdirmə apara biləcəklərsə, qeydiyyata alınacaqlar. Bunu 27 partiyadan neçəsinin bacaracağını bu gün dəqiq söyləmək mümkün deyil. Görünən bundan ibarətdir ki, bəzi partiyaların yenidən qeydiyyata alınması ilə bağlı problem ola bilər. Hadisələri qabaqlamaq istəmirəm. Proses yekunlaşandan sonra dəqiq məlum olacaq ki, ölkədə neçə siyasi partiya dövlət qeydiyyatına alınıb. Yenidən qeydə alınmış partiyalar daha məsuliyyətlə siyasi proseslərə yanaşmaqla ölkənin siyasi gündəmində daha aktiv iştirak etməyə çalışacaqlar. Prosesin siyasi arenaya müsbət təsiri bu ola bilər”.

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə bildirdi ki, sənədlərini Ədliyyə Nazirliyinə təqdim edən 27 partiyadan biri onun sədrlik etdiyi partiyadır. Hazırda yoxlama gedir:** “Bizim partiyanın üzvlərinə də dəqiqləşmə üçün zənglər gəlir, yoxlanılır. İndilikdə dəqiq bilmək olmaz neçə partiya bu yoxlamadan uğurla keçəcək və qeydə alınacaq. Prosesi izləyirik. Biz 7388 nəfər partiya üzvünün siyahısını vermişik. Verdiyimiz siyahıya da əminik”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**




## Mübariz Qurbanlı: “Yas mərasimlərində təyinatı olmayan adamlar məclis idarə edir”

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 20-yə yaxın qadın dini ayinlərin icraçısı təyinatı alıb. Məqsəd həm də odur ki, yas mərasimlərində qadın dini ayinlərini icra edənlər iştirak etməklə bu yerlərdə xurafat, falçılıq kimi zərərli vərdişləri deyil, əsl din təbliğ olunsun.**

APA xəbər verir ki, bunu “Media və dini təhlükəsizlik” mövzusunda keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.

Onun sözlərinə görə, yas mərasimlərində təyinatı olmayan adamlar gedib məclis idarə edirlər: “Əslində yas məclislərini idarə edən təhsilli adam olmalıdır, amma vətəndaşa hökm etmək olmaz ki, kimisə dəvət et. Ona görə bu məsələdə problemlər var. Bəzən bizim komitəni, Qafqaz Müsəlmanları İdarəsini bu məsələyə görə tənqid edirlər. Azərbaycanın 10 milyondan çox əhalisi var. Kim yasa kimi dəvət edir, bunun hamısını tənzimləyə bilmirik, komitənin cəmi 179 əməkdaşı var. Təhsili olmayan dini ayin icra etməz. Bu məsələ məscidlərdə həll olunub. Amma məsciddən kənar proseslərdə ictimaiyyəti inandırmalıyıq ki, təhsili olmayan adamı bu cür məclislərə dəvət etmək olmaz”.



# Şopenhauerin Xoşbulaqdakı restoranı

Zamin HACI
zaminhaci@gmail.com

**Həmişəki kimi, görünməmiş hadisə olubdur: bir icra hakimini uzun illər rayonu sökəndən sonra işdən çıxarıblar və qəfildən bunun saysız əmlakları tapılıb. Az qala respublikanın yarısı buna və qahımlarına məxsus imiş. (Qalan yarısı da MTN generalı Akif müəllimin idi, lakin onu cəsur hüquq-mühafizə orqanlarımız çoxdan müsadirə etmişlər, kasıblara paylamışlar. Məsələn, bu dəqiqə Çovdarovun Kürdəmirdəki villasında kinoklub açılıbdır, camaata Rac Kapurun "Avara" filmini nümayiş edirlər. Axşam seansında. Gündüz seansında baş rolda Zinət Amanın oynadığı "Əbədi məhəbbət nağılı" filmi göstərilir).**

İndi keçmiş icrabaşı and içib aman edir, daş atıb (əlim dinc durmadı, az qaldım "Daşkəsəni atıb" yazım) başını tutur, deyir o mülklər başqalarına məxsusdur, mənim heç bir köşküm də yoxdur. Az qalır desin küçədə qalıram. Lakin mülklərin siyahısı o qədər dəqiqliklə, adresi-filanıyla verilib ki, istər-istəməz camaatda şübhə yeri qalmır. İcrabaşının bəzi əski-üskü dostları, yoldaşları da elə buna ilişirlər, deyirlər siyahını haradan almısınız. Sanki bunlar dövlət sirridir.

Əlbəttə, elə dövlət sirri kimi zaddır. Bizdə dövlət qulluqçularının, məmurların, deputat və nazirlərin əmlakı gizli saxlanılır. Nə gəlir deklarasiyası var, nə vergi bəyannaməsi. İstədiyin qədər rüşvət al, villa tik, maşın əldə et, bunun hamısı xalqa gizli qalacaqdır. Düzdür, həmişə belə deyildi, lap qədim əyyamlarda bəzi xətakar jurnalistlər müəyyən dövlət resurslarından əmlakların kimə məxsus olduğunu öyrənə bilirdilər. Lakin sonradan hökumət bütün bu cür informasiyaları gizlətdi. Ta o vaxtacan ki, məmur rəhbərliyin gözündən düşür. Yalnız həmin anda mülklər qəfil aydınlığa çıxır. Elə bil adam işləyəndə ətrafında duman, qatı bulud varmış, birdən bulud dağılır.

Əslində düşündürücü sual da elə budur: niyə əlaqədar orqanlar, məsələn, baş prokurorluq və vergi idarəsi hansısa məmurun saysız-hesabsız əmlak əldə etməsinə uzun zaman göz yumur? Əgər adi bir adam, olsun Bakının Zirə kəndindən Hüsü müəllim, evinin yanına daş töküb həyət tualeti qayırmaq istəsə, dərhal idarələr tökülüşüb gələcək. Ekskavatorla, tankla, zirehli maşınlar, aviasiya və dronla. Tualeti uçurub böyrü üstdə qoyacaqlar, həmin anda xalqa sayt vasitəsilə hesabat da veriləcəkdir: "Bu gün Zirə kəndində vətəndaş Hüsü müəllimə məxsus qanunsuz tualet tikintisi tərəfimizdən aşkar edilmiş, dərhal müvafiq tədbirlər görülərək sökülmüşdür. Zəhmətkeşlərimizdən xahiş edirik böyük və kiçik ehtiyaclarını həyətdə ağacın dibinə ödəsinlər. Hüsü müəllimin gələcək taleyi bizi maraqlandırmır. Bir də qanunsuz tikiliyə cəhd etsə, onu özüyeriyən artilleriya qurğusu ilə vurub baş-get edəcəyik". Sitatın sonu.

Bütün bunların fonunda uca millətimizin deputat sayını, konstitusiyanı, hətta Nazirlər Kabinetinin taleyini müzakirə etməsi gülməlidir. Guya bizdən soruşan varmış... Deputat sayı 125 oldu, ya 225 oldu, dəxli nədir ki? Onsuz axırda deputatların hamısını əlahəzrət seçici özü müəyyən edir. Konstitusiyaya heç indiki vəziyyətində əməl eləyən yoxdursa, referendumla dəyişəndə öpüb gözlərinin üstünə qoyacaqlar? Yox. Britaniyada heç konstitusiya yoxdur, guya bizdən pis yaşayırlar?

Şəxsi iradənin bütün qanunlardan üstün sayıldığı şəraitdə yaşayırıq. Hətta ola bilər Artur Şopenhauer özünün "Dünya iradə və təsəvvür kimi" əsərini Azərbaycanı nəzərdə tutaraq yazmışdır.

Yazını da elə Artur müəllimdən icra başçılarımız haqda sitatla bitirirəm: "Pul, var-dövlət dəniz suyu kimidir, içdikcə daha çox susayırsan".




# Qarabağda böyük oyunun son pərdəsi: Rusiya sonuncu "patronu" atır, Bakı isə...

## Azərbaycanın oyuncaq rejimə və havadarına əks-zərbəsi qəfil və ağrılı olacaq! **Kremlə yaxın nəşr:** "Cənubi Qafqaz dramatik hadisələr ərəfəsindədir..."

**Qarabağın nəzarətimizdən müvəqqəti kənarda qalmış hissəsində separatçı tör-töküntülərlə Rusiya bədməramlı qüvvələrin dövlətimiz əleyhinə ortaq demarşları təhlükəli xarakter alıb. Həyasızlıq, özündənrazılıq və cəzasızlıq hissi o həddə çatıb ki, "Şeytan yuvası"ndan Bakıya hətta ultimativ tələblər və hədələr səslənir, "vaxt" qoyulur, Ağdam-Əsgəran yolu kəsilir.**

Neçə gündür arası kəsilməyən bu qəbil təxribatlara görə məsuliyyətdən Moskva nə qədər öz yaxasını kənara çəkməyə çalışsa da, Bakıya artıq dil yox, diş göstərən oyuncaq rejimin arxasından Kremlin "böyük qulaqları" apaydın görünür. Elə təkcə Xocalı hava limanı ərazisində, Rusiya kontingentinin ofisi qarşısında hələ də Rusiya, Ermənistan bayraqları və separatçıların əski parçasının (!) yan-yana asılması özlüyündə hər şeyi deyir və Moskvanın gerçək niyyətini qabarıq ifadə edir. Sanki bu ərazilərin Azərbaycana heç bir dəxli yoxdur.

Bu, sözsüz ki, həm də Rusiyanın suveren dövlətimizi ələ salmasıdır. Rusiya XİN-in 15 iyul təxribatçı bəyanatı buna şəkk-şübhə saxlamadı. Qısası, Moskva bir müddətdir separatçı "kartı" ilə Azərbaycan əleyhinə açıq oynamağa başlayıb...

*****

Azərbaycan təbii ki, bütün bu siyasi oyunbazlıqlara, eyni zamanda 10 noyabr kapitulyasiya sənədinin 4-cü bəndinə daban-dabana zidd oyunbazlıqlara uzun müddət dözüm göstərməyəcək. Bunu, deyəsən, Putinin imzası duran 22 fevral (2022) Moskva bəyannaməsini çoxdan unutmuş Rusiyada da hiss eləməyə başlayıblar. Rəsmi Kremlə yaxın "Kommersant" qəzetindəki srağagünkü məqalə bu xüsusda diqqət çəkir. Məqalənin müəllifi **ermənipərəst siyasi şərhçi Maksim Yusin**dir.

"Son onillik ərzində Rusiya ilə Azərbaycanın münasibətlərində ən ciddi böhran yaranıb. Ola bilsin Cənubi Qafqaz dramatik hadisələrin astanasındadır. Bu, Rusiya və Azərbaycanın xarici işlər nazirlikləri arasında görünməmiş kəskin bəyanat mübadiləsindən sonra aydın oldu" - yazının girişində bildirilir.

**Müəllifə görə, Rusiya XİN-in 15 iyun bəyanatında Bakıya qarşı birbaşa hücum olmasa da, mətndən aydın olur ki, guya Azərbaycanın Qarabağı "blokadası" böhrana səbəb olub:** "Azərbaycanın cavabı dərhal və görünməmiş dərəcədə sərt oldu. Rusiya XİN-in mövqeyi qəbuledilməz adlandırıldı, üstəlik, prezidentlər Putin və Əliyev tərəfindən ötən ilin fevralında qəbul edilmiş Bakı və Moskva arasında müttəfiqlik əməkdaşlığı haqqında bəyannaməyə uyğun gəlmədiyi vurğulandı".

**Şərhdə Azərbaycan XİN-in cavab bəyanatından ən sərt məqam kimi erməni silahlı birləşmələrinin qalıqlarının Azərbaycandan hələ də çıxarılmaması qeyd olunur:** "Üstəlik, bildirilir ki, həmin birləşmələrə Rusiya sülhməramlı kontingentinin nəzarəti altında dəstək verilir. Başqa sözlə, Bakı birbaşa Moskvanı... acizlikdə və könülsüzlükdə ittiham edir. Əlavə olaraq, Qarabağdan erməni silahlı birləşmələrinin qalıqlarının çıxarılmasına nail olmaq əzmini göstərir".

**Müəllifin fikrincə, Bakının getdikcə daha qətiyyətli olan bəyanatları heç bir şübhə yeri qoymur ki, Prezident Əliyev və onun komandası hadisələrin inkişafını sürətləndirməyə hazırdır:** "Onlar Qarabağda Rusiya sülhməramlılarının "nizam-intizam" və "status-kvonun" qorunub saxlanılmasına "çalışdığı" 5 ilin sonuna qədər gözləməyə bilərlər".

**Bundan əlavə, məqalədə Bakının bəyanatından sonra sülhməramlıların artıq Azərbaycan üçün birtərəf hesab edilmədiyi vurğulanır:** "Bu isə o deməkdir ki, onların mövcudluğu Azərbaycan Ordusunun Xankəndi və ətraf əraziləri qanunsuz silahlı birləşmələrin qalıqlarından təmizləməsinə mane olmayacaq. Bakı Ermənistanın müdaxilə etməyəcəyinə ümid edir (hətta müdaxilə etsə belə, qüvvələr nisbəti birmənalı olaraq Azərbaycanın xeyrinədir). Qərbə gəlincə, bu gün onlar da Qarabağ ermənilərinin müdafiəsinə qalxmağa hazır deyil. Bakının döyüşkən ovqatını nəzəri cəhətdən durduracaq yeganə şey iqtisadi sanksiyalar, ilk növbədə neft və qazla bağlı məhdudiyyətlər ola bilər. Amma Qərb bunu edə bilməz. Onun üçün əsas rəqib Moskvadır və Azərbaycanın enerjidaşıyıcıları məhz Rusiyaya alternativ hesab olunur. Kremlə gəlincə, Azərbaycan Rusiyanın reaksiyasından o qədər də qorxmur. Görünür, onlar hesab edirlər ki, Rusiya Ukraynada çox dərin bataqlığa düşüb və Cənubi Qafqazda özünə qarşı daha bir cəbhə açmağa nə istəyi, nə də gücü və potensialı var".

*****

"Bütün bunlar hibrid müharibənin tərkib hissəsidir. Baş verənlər əslində Ermənistanın və separatçıların dalana dirəndiyini, çarəsiz qaldığını, həllin yaxınlaşdığını göstərir".

"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri Axar.az-a separatçıların Xankəndidəki aksiyalarının səbəb və məqsədləri haqqında danışan **Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karauz** deyib.

**General separatçıların bütün bəhanələr tükəndiyi üçün "məzlum xalq" rolunu oynamağa başladıqları qənaətindədir:** "Ortada qurulan bir oyun var. Haqsız və tələblərin hüquqa zidd olduğunu çox yaxşı bilirlər. Azərbaycanın suveren torpaqlarında beynəlxalq hüququ tapdalayaraq varlıqlarını davam etdirməyə çalışırlar. 28 illik işğal dövründə arxalarında duranların dəstəyini görmədikləri üçün də xristianlıqdan dəm vururlar, "əzilən xalq" rolunu oynayırlar, yaxud Azərbaycan və Türkiyənin "xoş niyyətli olmadığı" üçün özlərini davamlı müdafiə etmək ehtiyacı duyduqlarını deyirlər".

**Ekspertə görə, əsas çətinlik indi sülhlə bağlı danışıqların, təklif edilən variantların ölkələr baxımından birdən çox olmasıdır:** "Yeni ortada Rusiya, ABŞ, İran və Fransa kimi ölkələrin, Avropa Birliyinin maraqları var. Azərbaycanın mövqeyi sabit, konkret və beynəlxalq hüquqa uyğundur. Amma qarşı tərəf onillərdir ərkəsöyünlüklə insanların mərhəmət duyğusu ilə, hüquqa baxışı ilə oynayır, ağlaşma qurmaq taktikası ilə təbliğat aparır. Bu, böyük bir oyunun, ssenarinin son pərdəsidir. Əslində hər kəs bütün olanları görür, dünya daha əvvəlki deyil".

**Yücel Karauz Rusiyanın da tezliklə Qarabağı tərk etməli olduğunu bildiyini, buna görə də ermənilər arasında onlar olmadan fəlakət baş verəcəyi fikrini formalaşdırmaq istədiklərini qeyd edib:** "Əlbəttə ki, Xankəndidəki bütün proseslərdə Rusiyanın barmağı var".

Bu "barmağı" əlbəttə ki, hamıdan yaxşı Bakıda görür və ciddiyə alırlar. Odur ki, əks-zərbəmiz qəfil və ağrılı olacaq...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 122(8259) 20 iyul 2022

**Rusiya Cənubi Qafqazla, xüsusilə də Qarabağla bağlı artıq belə demək mümkünsə, "açıq oynamağa" başlayıb. İndiyədək müxtəlif vasitələrlə imitativ görüntülər yaratmağa çalışırdılar ki, guya Qarabağda sülhün, sabitliyin əldə olunması üçün səylər göstərirlər. Ancaq indi Rusiya Xarici İşlər Nazirliyi səviyyəsində verilən bəyanat qızışdırıcı mövqe kəsb edir, sülhməramlıların Xankəndidəki qərargahı önündə "artsax" adlı oyuncağın əski parçası Ermənistan (?!-"YM") və Rusiya bayraqları ilə yanaşı asılır.**



# Separatçıların sülhməramlılarla birgə təxribatları dayanmır - nə etməli?

## Rusiyanın Qarabağdakı oyunbazlıqları gərginliyi tətikləyir; Ermənistanın daha bir riyakar bəyanatına Azərbaycan XİN-dən kəskin cavab

**Deputat:** "Moskva istər Vaşinqton, istərsə də Brüsseldə imzalanacaq sənədi qeyri-legitim sayacağına eyham vurur və absurd bəyanatlar verir"
**Politoloq:** "Azərbaycan antiterror əməliyyatı keçirməli və silahlı erməni birləşmələrini buradan çıxarmalıdır"

Anti-Azərbaycan mövqe təkcə bununla məhdudlaşmır. Paralel olaraq açıq şəkildə separatçıların mövqeyindən çıxış edərək, Laçın yolunda nəzarətin aradan qaldırılmasını tələb edirlər. Eyni zamanda sülhməramlıların müşayiəti ilə gizli yollarla qanunsuz erməni silahlı dəstlərinin döyüş mövqelərinə hərbi təminatların daşınması davam etdirilir. Sonuncu dəfə videogörüntülər iki gün öncə yayıldı. İyulun 18-də Rusiya sülhməramlı kontingentinin müşayiəti altında növbəti dəfə Xankəndi-Kərkicahan-Xəlfəli yolu ilə ermənilərin döyüş mövqelərinə təminat vasitələrinin daşınması fiksə edilib. Onların hərəkəti bölmələrimizin texniki müşahidə vasitələri ilə qeydə alınıb. Videogörüntüdə Rusiya sülhməramlı kontingentinə məxsus hərbi texnikasının müşayiəti altında ermənilərin döyüş mövqelərinə təminat vasitələrinin daşınması aydın görünür. İyulun 18-də həmçinin separatçılar sülhməramlıların müşayiəti ilə Əsgəran-Ağdam yolunu bağlayıb, aksiya keçiriblər... Zəruri qeyd: Azərbaycan Qarabağdakı ermənilərə humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif edib, bu, böyük humanistlik nümunəsidir. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də Brüssel görüşündən sonra bu marşrutu dəstəkləyib, faktiki olaraq rəsmi Bakının mövqeyini bölüşüb. Amma reinteqrasiya əleyhdarı olan Rusiyanın tətikləyici addımları nəticəsində separatçılar fasiləsiz etiraz aksiyalarına başlayıblar, Xankəndidə çadırlar qurublar, Xocalıda mitinq keçiriblər, eyni zamanda Əsgəran yolunu beton piltələrlə bağlayıblar. Bu, açıq şəkildə Azərbaycana savaş elan etmək cəhdi, həmçinin həyasızlıq nümunəsidir. "Arxalı köpək qurd basar" - deyiblər, amma Qarabağdakı bir ovuc çaqqal sürüsü bu addımlarla sonunu gətirir.

Sülh danışıqlarının davamında və imzalanmasında maraqlı olduğunu, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını "tutuquşusayağı" davamlı şəkildə təkrar edən Ermənistan rəhbərliyi də qızışdırıcılıq meyillərindən əl çəkmir və paralel olaraq təxribatçı bəyanatlar yayır. Azərbaycanın Xarici İşlər Nazirliyi ötən gün rəsmi İrəvanın riyakar siyasətinə növbəti dəfə etirazını bildirib. Bəyanatda qeyd olunub ki, iyulun 18-də Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə federal naziri Aleksandr Şallenberqlə mətbuat konfransı zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan növbəti dəfə Azərbaycanı bir sıra əsassız iddialarla təqsirləndirərək bölgədə sülh və sabitlikdə maraqlı olmadığını nümayiş etdirib. Azərbaycan XİN bildirib ki, bölgədə "gərgin humanitar vəziyyət" iddiaları Ermənistanın siyasi avantürası və manipulyasiyasıdır. "Ermənistan bölgədə sülh, sabitlik və təhlükəsizlikdə maraqlıdırsa, riyakarlıq və saxta manipulyasiyalara son qoymalı və sülh prosesinin uğurla nəticələnməsi üçün beynəlxalq hüquqi öhdəliklərinə əməl etməlidir" - bəyanatda deyilir.

Bəli, mövqe bildirilib, kifayət qədər sərt və arqumenli şəkildə. Amma çətin ki, Ermənistan bundan sonra da konstruktiv davransın. Görünən budur ki, Rusiyanın, Fransanın və digər anti-Azərbaycan çevrələrin qızışdırıcı funksiya rolunu oynaması sayəsində qarşı tərəf sözlə başa düşmək niyyətində deyil.

Bölgədə atəşkəs demək olar hər gün pozulur, qanunsuz erməni silahlı birləşmələri mövqelərimizi davamlı olaraq atəşə tutur. Buna görə sülhməramlılar heç bir tədbir görmür, əksinə, onları himayə edir, qoruyur...

Özü də atəşkəs pozuntusunun miqyası və intensivliyi gündən-günə artır. İyulun 18-i saat 21:15 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. Bu barədə Musavat.com-a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib. Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb. Bundan başqa, iyulun 19-u saat 00:40-dan 01:40-dək Ermənistan Silahlı Qüvvələrinin bölmələri İstisu, Basarkeçər rayonunun Yuxarı Şorca və Qafan rayonunun Acıbac yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu, Mollabayramlı və Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Boyəhməd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub. Bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb. Faktlar hər şeyi deyir. Deməli, "Dəmir yumruq"suz olmayacaq!

Rusiya xüsusilə Brüssel görüşündən sonra aqressivləşib və separatçı rejimə aşkar dəstəklərinin, davranışlarının məğzi odur ki, sülhə, reinteqrasiyaya qəti şəkildə imkan vermək istəmirlər. Əksinə, ermənilərlə döyüş mövqelərinə silah-sursatı birgə daşıyaraq, indiki həssas anda növbəti təxribatlara hazırlıq aparırlar.

Bugünlərdə Rusiya XİN-in avantürist mövqeyinə cavab olaraq rəsmi Bakı sərt etirazını bildirib. "Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin bu bəyanatı Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannaməyə və Rusiya Federasiyası Prezidenti Vladimir Putin tərəfindən Qarabağ bölgəsi daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəkləyən çıxışları ilə uyğunsuzluq təşkil edir. Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin 30 ilə yaxın müddətdə ərazilərimizi işğal altında saxlayan Ermənistanın Baş nazirinin Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıması faktı kontekstində şərh etməsi və şərtləndirməsi qəbuledilməzdir" - Azərbaycan XİN bildirib. Açıq şəkildə erməni separatizmini müdafiə etməsinə adekvat cavab alan Rusiya heç şübhəsiz 2025-ci ildən sonra bölgədə qala bilməyəcək, bunun anonsunu ötən həftə cənab Ərdoğan da verdi.

Mövcud vəziyyət və perspektivlərlə əlaqədar ekspertlərimizə müraciət etdik. Belə vəziyyətdə Azərbaycan hansı addımları atsın və ya atmalıdır? Rusiya ilə necə danışaq? Onunla anlaşma əldə etmək mümkün olmayacaqmı? Alternativ variantımız nə ola bilər?

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə, korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, son gərginlik məhz Rusiya tərəfindən yaradılıb:** "Çünki danışıqların bir neçə müstəvidə getməsinə baxmayaraq, Kremlin istəyi istənilən sənədin məhz Rusiyanın iştirakı ilə imzalanmasıdır. Yəni Moskva istər Vaşinqton, istərsə də Brüsseldə imzalanacaq sənədi qeyri-legitim sayacağına eyham vurur və absurd bəyanatlar verir. Bu kimi absurd mövqe, nəhayət, iki gün əvvəl Azərbaycanın Moskvadakı səfirinin Rusiya Xarici İşlər Nazirliyinə, Rusiyanın Bakıdakı səfirinin isə Azərbaycan XİN-ə dəvət olunması ilə nəticələndi. Rusiya tələb edir ki, 9 noyabr 2020-ci il tarixli bəyanatın müddəalarına uyğun olaraq "Laçın dəhlizinin blokadası" tam və dərhal açılmalıdır... Yəni absurd bir tələbdir. Azərbaycan tərəfi də vurğulayıb ki, Moskvanın Laçında nəzarət-keçid məntəqəsinin quraşdırılması nəticəsindən Qarabağda gərgin humanitar vəziyyətin yaradılması barədə iddiaları reallığı əks etdirmir". **A.Nağıyevin sözlərinə görə, paralel olaraq Rusiya istəyir ki, Moskvada xarici işlər nazirlərinin üçtərəfli görüşünü təşkil etsin:** "Kremlin niyyəti budur ki, ən yüksək səviyyədə razılaşmaların həyata keçirilməsi yollarını, o cümlədən sülh müqaviləsinin razılaşdırılması mövzusunu müzakirə etmək üçün Moskvada keçiriləcək Rusiya-Azərbaycan-Ermənistan sammitini təşkil etsin, sonra isə yekun sənəd imzalansın. Bu, bizim yuxarıda qeyd etdiklərimizin təsdiqi deməkdir..."

**Milli Məclis üzvü digər məqama da xüsusi diqqət yetirməyi vacib sayır:** "Paşinyanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması məsələsi və bunu Rusiya tərəfinin də tirajlaması heç bir diplomatik etiketə sığmır. Paşinyan Azərbaycanın ərazi bütövlüyünü Qarabağ da daxil olmaqla, tanımalıdır və tanıyıb da. Bunun Qarabağa ayrıca şamil edilməsi kökündən səhvdir. Sülhməramlılara gəldikdə, artıq onları törətdiklərinə görə neytral tərəf hesab etmək heç də düzgün deyil. Rusiya hərbi kontingentinin hərəkətləri və sərgilədiyi mövqelər antiterror əməliyyatlarına gətirib çıxara bilər. Kreml də bunu yaxşı başa düşür. Ona görə də çalışır ki, Qərbin və Türkiyənin regionda artan nüfuzuna mane olsun. Lakin Rusiya Ukraynaya qarşı savaş apardığı dönəmdə paralel olaraq Cənubi Qafqazda yeni bir cəbhə açmaqdan çəkinir və buna heç gücü də yoxdur. Zənnimcə, Rusiya reallığı başa düşür və güman edirəm ki, Azərbaycanla razılaşmadan hər hansı bir addım atmayacaq".

**Politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Rusiyanın Qarabag iqtisadi rayonunda yerləşən sülhməramlı qüvvələri öz missiyasından kənara çıxaraq Azərbaycanın təhlükəsizliyini təhdid edir və erməni separatizmini dəstəkləyir:** "Kreml əldə olunan razılaşmaların ziddinə hərəkət edərək konkret sülhün əldə edilməsinə qarşı mövqe ortaya qoyub. Rusiya nə Brüsselin, nə də özünün vasitəçiliyi ilə hər hansı bir sülhün əldə edilməsinə imkan vermir. Moskva çalışır ki, erməni separatizmi mövcudluğunu davam etdirsin, o da buradakı hərbi kontingenti daim saxlasın. Lakin Azərbaycan buna imkan verməyəcək. Dövlətimiz qətiyyətli şəkildə Brüssel və Vaşinqton formatını davam etdirərək sülhün əldə edilməsinə və reinteqrasiya prosesinə nail olacaq". **Politoloq qeyd etdi ki, hazırda Rusiya 1988-ci il olaylarını təkrarlayır:** "Azərbaycan hazırda güclüdür və məkrli planların reallaşmasına imkan verməyəcək. Rusiya tam şəkildə Azərbaycana qarşı separatizmi dəstəkləyir və təxribatlara hazırlaşır. Azərbaycan antiterror əməliyyatı keçirməli və silahlı erməni birləşmələrini buradan çıxartmalıdır. Bu istiqamətdə Türkiyə ilə birgə hərəkət edərsə, Rusiyanın səyləri nəticəsiz qalacaq. Rusiya görür ki, Azərbaycan reinteqrasiya prosesinə yaxınlaşır. Ona görə də belə bir mövqe ortaya qoyub". **Separatçı-terrorçu qüvvələrin aktivləşməsinə, davamlı təxribatlara gəlincə, M.Əsədullazadə əminliklə bildirdi ki, Azərbaycan qətiyyətli hərbi addımlar atmalıdır:** "Bunun bir yolu var, hərbi əməliyyatlar keçirib, Sərsəng su anbarını və digər strateji yüksəklikləri nəzarətə almaq lazımdır".

Artıq ictimai rəyin səbr kasası dolub, Rusiya oyunbazlıqlarına son qoymalıdır! Unutmasın ki, Azərbaycan təzyiq və təhdidlərə rəğmən, heç vaxt anti-Rusiya planlarında yer almayıb ötən illərdə. Amma Kremlin qırmızı xətləri keçməsi son nəticədə ölkəmizi seçim qarşısında qoya bilər...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 123 (8259) 20 iyul 2023



# Lirə hansı həddədək enə bilər - Türkiyədə iqtisadi islahatlar davam edəcəkmi...

## Şahin Cəfərli: "Sonunda IMF-dən borc alına bilər"

## Elman Sadıqov: "İslahatların ikinci mərhələsi əhali üçün ağrılı keçir"

**Qısa bir aradan sonra Türkiyənin milli valyutası olan lirə yenidən ucuzlaşmağa başlayıb. İyulun 18-də Türkiyədə dolların məzənnəsi 27 TL-ni ötüb. Avronun məzənnəsi isə 30,66 lirəyə çatıb.**

Qeyd edək ki, mayda keçirilən prezident və parlament seçkiləri yekunlaşdıqdan sonra Türkiyə valyutası ciddi dəyər itirib. Prezident Rəcəb Tayyib Ərdoğanın formalaşdırdığı yeni hökumət iqtisadiyyatda yaşanan problemləri aradan qaldırmaq üçün bir sıra addımlar atıb. İyunun 22-də son iki ildə ilk dəfə Türkiyə Mərkəzi Bankı uçot dərəcəsini 8 faizdən 15 faizə qaldırıb. Daha sonra hökumət bir sıra vergi və rüsumların, bəzi qrup işçilər üçün maaşların artırılmasına gedib. Belə ki, Əlavə Dəyər Vergisi 18 faizdən 20 faizə qaldırılıb. Prezident Ərdoğanın imzaladığı fərmana əsasən turizm, tikinti və emal sektorları bu vergini ödəməkdən azaddır. Yerli bank və sığorta şirkətləri özləri azad olsalar da, bank və sığorta əməliyyatlarından ƏDV-nin ödənməsini təmin etməlidilər.

Türkiyə prezidentinin fərmanı ilə həmçinin viza qeydiyyatı, pasport, notarius, yaşayış yerinə qeydiyyat üçün xidmət haqları 50 faiz artırılıb. Xaricdən ölkəyə idxal olunan mobil telefonların qeydiyyat tarifi 6091 lirədən 20 min lirəyə - ondakı məzənnə ilə 233 dollardan 766 dollara qaldırılıb.

Bununla yanaşı, dövlət qulluqçularının minimum əmək haqqı mövcud 11,8 min lirədən 22 min lirəyə - təxminən 850 dollara qaldırılıb.

Daha bir addım nəqliyyat vasitəsinə görə ödənilən verginin 2 dəfə artırılmasıdır. Bu, bütün növ nəqliyyat vasitələrinə - avtomobil, su, hava - aiddir. Vergi avtomobilin sərnişin tutumu, yaşı, havaya buraxdığı qazların həcminə görə fərqli hesablanır. Ümumilikdə 1,6 mühərrikli avtomobilə görə vergi 120-150 dollar ətrafındadır.

Türkiyə hökuməti həmçinin illik gəlirdən hesablanan korporativ vergini 25 faizdən 30 faizə qaldırıb. Bu, maliyyə lizinqi, faktorinq, elektron ödənişlər, kapital bazarı iştirakçıları, sığorta və təkara sığorta sahələrində çalışan şirkətlərə, həmçinin pensiya fondlarına aiddir.

Eyni zamanda sırf ixracatdan əldə edilən korporativ gəlirlərə tətbiq olunan 1 faizlik vergi 5 faizə qaldırılıb.

Yeni hökumətin atdığı addımlar bir sıra müsbət nəticələr doğurub. Məsələn, lirənin məzənnəsini saxlamaq üçün dövlət ehtiyatlarından istifadənin dayandırılması bu ehtiyatların artmasına gətirib çıxarıb. İyunun 3-cü həftəsində Türkiyənin beynəlxalq valyuta ehtiyatlarının artımı 8,5 milyard dollar təşkil edib ki, bu da ölkə tarixində rekord hədd sayılır. **Türkiyənin maliyyə naziri Mehmet Şimşək Tvitterdə qeyd edib ki, ölkə hakimiyyəti valyuta ehtiyatlarının artırılması istiqamətində işləri sürətləndirəcək:** "Ölkə tədricən rasional iqtisadi siyasətə qayıdacaq və ehtiyatların gücləndirilməsi üçün əlavə xarici mənbələrin təmin edilməsi istiqamətində fəal iş aparacaq. Bundan əlavə, türk lirəsinə əsaslanan investisiyaların cəlb edilməsi üçün tədbirlər görüləcək".

İyulun 17-də hökumətin qərarı ilə aksiz dərəcəsinin artırılması nəticəsində benzin və dizelin qiymətində 6 lirə bahalaşma olub. Yanacaq qiymətlərinin artması ölkədə yenidən həyəcana və lirənin dəyərsizləşməsinə gətirib çıxarıb. Əhali yeni hökumətin vergi və ödənişləri artırmasının ardınca lirənin dəyərsizləşməsindən narahatlıq keçirməkdədir.

Türkiyə Azərbaycanın strateji tərəfdaşı və ən böyük ticarət partnyorlarından biri olduğu üçün qardaş ölkə iqtisadiyyatındakı problemlər Azərbaycan cəmiyyətini də narahat edir. Bu problemlərin həll imkanları, gözləntilər müzakirə olunur.

**Politoloq Şahin Cəfərlinin fikrincə, hökumət iqtisadiyyatdakı problemləri həll, büdcə kəsirinin əlavə maliyyələşmə mənbələrini təmin etmək üçün vergi və ödənişləri artırır:** "Büdcə kəsirinə yamaq vurmaq üçün başqa sahələrdə də ciddi vergi artımları var və bu tədbirlər davam edəcək. Seçki ərəfəsində maaş, təqaüd artımları, pul bolluğu, Mərkəzi Bank rezervlərini əritmək hesabına mümkün qədər stabil saxlanılan məzənnə nəticəsində ölkədə yalançı bahar havası yaradılmışdı. Seçkidən sonra bunlara ehtiyac qalmadı, daha doğrusu, vəziyyəti olduğu kimi saxlamaq üçün resurs qalmadı. Məsələnin mənfi tərəfi odur ki, ortada ciddi bir böhrandan çıxış proqramı yoxdur və Türkiyənin ehtiyac duyduğu institutsional islahatlara dair siyasi iradə görünmür. Sadəcə, durumu stabilləşdirmək üçün atılan məcburi, palliativ xarakterli addımlar var. Bu isə yaxın gələcəkdə iqtisadi tərəqqinin başlayacağına ümid yaratmır. Qabar dağında kifayət qədər neft, Qara dənizdə isə yetərli miqdarda qaz çıxmır ki, bunun heç olmasa, daxili tələbat müəyyən qədər ödənsin".

**Politoloq hesab edir ki, çıxış yolu Beynəlxalq Valyuta Fondu (IMF) ilə Stand-by proqramı üzərində anlaşıb, əlverişli şərtlərlə kredit xətti açılmasına nail olunması ola bilər:** "Lakin IMF Türkiyədə həm bu iqtidar, həm də bir çox müxalif çevrə tərəfindən dəhşətli şəkildə şeytanlaşdırılıb. (Türkiyə özü IMF üzvü olduğu halda.) "Borc alan əmr alar" deyimi ölkədə populyardır, halbuki ötən illər ərzində başqa mənbələrdən alınmış 460 milyard dollarlıq borc var. Düzdür, prezident Ərdoğan dünən dediyinin bu gün 180 dərəcə əksi yönündə addım atsa belə, öz seçicilərinə bunu asanlıqla qəbul etdirmək kimi bir lüksə sahibdir. Amma IMF ilə bağlı əsas problem budur ki, bu qurum razılaşdırılan proqramın icrasının hər mərhələsinə nəzarət edir və ciddi şəffaflıq tələb edir. Gedişat onu göstərir ki, sonda (bəlkə bələdiyyə seçkilərindən sonra) istəmədən də olsa, IMF ilə anlaşmaq zorunda qala bilərlər. Çünki aşağı faizlə böyük miqdarda borc verəcək başqa bir struktur yoxdur.

Amma Türkiyənin dövlətə aid ərazilərinin və Varlıq Fondunda toplanmış dövlət şirkətlərinin ərəb şeyxlərinə satılması ehtimalı da az deyil"...

**İqtisadçı-ekspert Elman Sadıqov isə hesab edir ki, lirənin dəyərsizləşməsi labüddür:** "Hökumət riskli siyasət yürütməyə məcburdur. Çünki həyata keçiriləcək monetar siyasət həm ixracatçıların istəklərini nəzərə almalı, həm lirəyə valyuta ehtiyatlarından müdaxilələrə son qoymalı, həm inflyasiyanı boğmalıdır və sair. Bu hədəflərin isə bəziləri bir-birləri ilə ziddiyyət təşkil edir. Məsələn, ixracatçılar lirənin bahalı olduğunu və ixraca mənfi təsir etdiyini qeyd edirlər, digər tərəfdən bahalı lirə inflyasiya formalaşdırır. Sual oluna bilər ki, bu qədər dəyər itirən lirə niyə bahalıdır ki? Bəli, bahalıdır. Bu gün türk lirəsi keçən dövr ərzində inflyasiya səviyyəsi və müdaxilələr nəticəsində real bazar dəyərindən bahalı qalıb. Xüsusilə son 5-6 il ərzində lirə öz bazar dəyərinə 1-2 il gecikmə ilə çatıb. Deməli, öncə lirə öz real bazar dəyərinə (ilkin mərhələdə 26-27, sonra 30, vəziyyətdən asılı olaraq 35 qədər mümkündür) çatdırılmalıdır ki, bu da tədrici, kiçik faiz artımları ilə həyata keçiriləcək. Lirə öz real bazar dəyərinə (həm də iqtisadiyyatın, tədiyyə balansının tələbinə) uyğun həddə çatdıqdan sonra kurs valyuta müdaxilələri ilə deyil, faiz dərəcələri ilə tənzimlənəcək".

**Ekspert bildirir ki, Türkiyə iqtisadiyyatında baş verən hadisələr keçmiş illərdən yığılan problemlərin həllinə çalışmalardır:** "Bu ilin birinci yarımili üzrə Türkiyə dövlət büdcəsinin kəsiri 430 milyard lirə civarındadır. Bu göstəricinin ilin sonuna 1 trilyon lirəni keçəcəyi gözlənilir. Türkiyə tədiyə balansının kəsiri Mehmet Şimşek maliyyə naziri təyin olunana qədər ayda 8-9 milyard dollara çatırdı. İndi bu kəsir 5-6 milyard dollara qədər enib. Tədiyə balansının kəsirini bağlamaq üçün dövlətin ehtiyatlarından, xüsusilə Mərkəzi Bankın ehtiyatlarından istifadə olunurdu. Bu gün lirənin dəyərdən düşməsi gözlənilən haldır. Mərkəzi Bank hazırda lirənin məzənnəsini saxlamaq üçün valyuta bazarına hər hansı intervensiya həyata keçirmir. Yeni lirə sərbəst buraxılıb, məzənnəni bazar müəyyənləşdirir".

**Ekspertə görə, Türkiyə hökumətinin iqtisadiyyatdakı problemləri aradan qaldırmaq üçün həyata keçirməli olduğu islahatlar 3 mərhələdən ibarət ola bilər:** "Birinci mərhələ indiyədək atılmış addımlardır. Bura daxildir lirənin sərbəst buraxılması, büdcə kəsirini bağlamaq üçün vergilərin artırılması. İkinci mərhələdə lirənin məzənnə itkisi davam edəcək. Üçüncü mərhələdə - tədiyə balansındakı kəsir aradan qaldırıldıqdan sonra inflyasiyaya qarşı mübarizə tədbirləri həyata keçiriləcək. İndiki mərhələdə belə tədbirlər əks-effekt verə, islahatları yarımçıq qoya bilər. Şimşek həm maliyyə, həm də fiskal siyasəti müəyyən edir. Hər iki sahəni gözəl bilir. Nəticə etibarilə Türkiyədə hazırda monetar və fiskal siyasətin simbiozu həyata keçirilir".

**E.Sadıqovun sözlərinə görə, bu mərhələdə əhali üçün xoş olmayan proseslər gedir və gedəcək:** "Vergilər artır, inflyasiya var, lirə dəyərsizləşir və sair. Bu problemlər üçüncü mərhələdə - antiinflyasiya tədbirləri həyata keçirilməyə başlayanda tədricən zəifləyəcək, islahatlar investisiyaları artırıb, yeni iş yerlərini çoxaldanda isə tamamilə aradan qalxacaq. Burada problemlərin müvəffəqiyyətli həlli bir sıra amillərdən asılıdır: ölkəyə investisiya, valyuta cəlbindən, islahatların davamlılığından, siyasi qərarların iqtisadi qərarları üstələməməsi və sair. Bildiyiniz kimi, gələn il Türkiyədə bələdiyyə islahatları keçiriləcək. Bu, siyasi məqsədlərin iqtisadiyyata mənfi təsiri ehtimalını artırır. Əgər yeni hökumət bu təsirlərə imkan verməyib islahatları davam etdirəcəksə, müsbət nəticələr əldə edə biləcək".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 123 (8259) 20 iyul 2023



# "Şlyapa Zahid" iki həftə azadlıqdan sonra yenə qandallandı

## Nəcməddin Sadıkovun yaxın adamı bu dəfə 42 milyonluq mənimsəmədə suçlanır

**Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə müstəntiqin vəsatəti əsasında 18 iyul 2023-cü ildə Bakı şəhəri Səbayel Rayon Məhkəməsinin hakimi Ülviyyə Şükürovanın qərarı ilə Zahid Gülsəfa oğlu Niftəliyev barədə həbs-qətimkan tədbiri seçilib. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, Müdafiə Nazirliyinin məşhur sabiq əməkdaşı, "Şlyapa Zahid" ləqəbi ilə tanınan Zahid Niftəliyev barədə 42 milyon manatdan çox zərərvurmaya dair ittiham irəli sürülüb.**

Belə ki, iş materiallarına əsasən, Zahid Gülsəfa oğlu Niftəliyev kredit almaq məqsədilə "Şahin-CO" MMC yaradıb, təsərrüfat və maliyyə vəziyyəti barədə "Atabank" ASC-yə saxta məlumatlar təqdim edib, 2016-cı ildə 12 ay müddətinə 42 milyon 470 min 885 manat kredit alaraq, təyinatı üzrə istifadə etməməklə xüsusilə külli miqdarda ziyan vurub, götürülmüş kredit üzrə yalançı sahibkarlıq yolu ilə xeyli miqdarda gəlir əldə edib, kreditin ləğv prosesində olan "Atabank" ASC-yə ödənilməsi ilə bağlı məhkəmə qətnamələrini qərəzli olaraq icra etməyib. Qeyd edək ki, hazırda ləğv prosesində olan bankların çoxsaylı əmanətçilərinə vəsaitlərin ödənilməsi məqsədilə irihəcmli kreditlərin ilkin qaytarılmasının təmin edilməsi istiqamətində dövlət orqanları tərəfindən zəruri işlər həyata keçirilir.

Xatırladaq ki, "Şlyapa Zahid" ləqəbi ilə tanınan Zahid Niftəliyev Azərbaycan Ordusunun keçmiş baş qərargah rəisi Nəcməddin Sadıkovun yaxın adamı olub.

Ötən il həbsə alınan Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik, həmçinin Təhsil-tədris və Elmi tədqiqatlar idarəsinin sabiq baş zabiti Zahid Niftəliyev və N saylı hərbi hissənin tağım komandiri müavini Elsevər Niftəliyevin cinayət işi üzrə məhkəmə araşdırması bu il iyulun 4-də başa çatıb. Tərtər Hərbi Məhkəməsində keçirilən sonuncu iclasda hökm oxunub. Hakim İlqar Əliyevin sədrlik etdiyi hakimlər heyəti belə qənaətə gəlib ki, təqsirləndirilən şəxslərə verilmiş ittihamlar əsassızdır. Hökmə əsasən Zahid Niftəliyevin əməli Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsindən 312.1-ci (rüşvət verməyə təhrik etmə) maddəsinə tövsif edilib. Zahid Niftəliyev bu maddə ilə təqsirli bilinib, ona 10 min manat cərimə cəzası təyin edilib. Onun barəsində seçilmiş həbs-qətimkan tədbiri ləğv edilib, məhkəmə zalından birbaşa azadlığa buraxılıb. Təqsirləndirilən gizir Elsevər Niftəliyevin isə əməlində cinayət tərkibi olmadığından ona bəraət verilib. Qeyd edək ki, Zahid Niftəliyev və Elsevər Niftəliyev Hərbi Prokurorluğun İstintaq İdarəsi tərəfindən cinayət məsuliyyətinə cəlb edilmişdilər. Onlara qarşı Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2 və 311.3.3 (qabaqcadan əlbir olub külli miqdarda təkrar rüşvət alma) maddəsi ilə ittiham verilib. Zahid Niftəliyev həm də Cinayət Məcəlləsinin 341-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə və ya səlahiyyət həddini aşma) maddələri ilə ittiham irəli sürülmüşdü. Zahid Niftəliyev rüşvət almaqdan əlavə hərbçiləri qanunsuz olaraq öz bağ evində işlətməkdə təqsirləndirilirdi. Baş Prokurorluq Zahid Niftəliyev və onunla birgə ittiham olunan Elsevər Niftəliyevlə bağlı Tərtər Rayon Məhkəməsinin hökmündən protest verib.

Azadlığa çıxandan sonra isə "Şlyapa Zahid" cəmi 2 həftə azadlıqda qala bildi.

Son olaraq hərbi dairələrdə "Şlyapa Zahid" ləqəbi ilə tanınan Zahid Niftəliyevin həbs edilməsi Nəcməddin Sadıkqov ətrafında halqanın daralması kimi izah edilir. Bildirilir ki, Nəcməddin Sadıkov vəzifədə olduğu dövrdə "Şlyapa Zahid" təyinatlar, əsgərlərin bölünməsi, zabitlərə rütbə verilməsi məsələləri ilə məşğul olurdu və pul qazanırdı. Sabiq vergilər naziri Fazil Məmmədov, Nəcməddin Sadıkov və Zahid Niftəliyevin birgə Ukraynada tütün fabriki olub. Fabrikin 13 faizi Zahid Niftəliyevə məxsus olub. Zahid Niftəliyevin həbs edilməsi Nəcməddin Sadıkova böyük zərbə kimi izah edilir. **Müdafiə nazirinin sabiq müavini, ehtiyatda olan polkovnik Mehman Səlimov "adı korrupsiya cinayətlərində hallanan Baş Qərargahın keçmiş rəisi Nəcməddin Sadıkovun həbsi ehtimalı artırmı" sualını belə cavablandırıb**: "Şlyapa Zahid" getdi... Ancaq Nəcməddin Sadıkovun həbsi Ukraynadakı müharibənin nəticəsindən asılıdır. Biz nə qədər Kremlin, Putinin təsirindən uzaq olsaq, Nəcməddinin və digərlərinin həbsi şansı bir o qədər artacaq. Əgər Rusiya orada hərbi və siyasi mənada tam məğlub olsa, Azərbaycanda nəinki Nəcməddin, Kremlin "5-ci kolon"unun bütün nümayəndələri "buldozerin ağzına veriləcək"... Yox, Allah eləməmiş, Moskva - Putin Ukraynada qalib çıxsa, onda Nəcməddin də, bütövlükdə "5-ci kolon" da burada yenidən hökmranlıq əldə edə və Azərbaycan üçün daha təhlükəli oyunlar oynaya bilər..." Sabiq rəisin Rusiya hərbi-siyasi elitası ilə əlaqələri gizlin deyil. Nəcməddin Sadıkovun uzun illər Baş Qərargah rəisi postunu tutması da bu amillə bağlı olub: "Rusiyanın regionda təsirləri azaldıqca, Türkiyənin nüfuzu artdıqca, Nəcməddin Sadıkov kimi Rusiya ilə geniş əlaqəli kadrlar vəzifədən gedəcək, həbs olunma ehtimalları böyük olacaq. Nəcməddin Sadıkovun Rusiya ilə əlaqələri nə qədər geniş olsa da, artıq dövr dəyişib. Azərbaycan Rusiyanın təsir dairəsindən uzaqlaşdıqca, orduda vəziyyət dəyişəcək. 44 günlük Vətən müharibəsi göstərdi ki, Türkiyə ordu modelinin mənimsənilməsi ölkəmiz üçün həyati vacib məsələdir. Belə bir modeldə Nəcməddin Sadıkov kimilərə yer yoxdur. Rusiya ilə əlaqələri olan Rövşən Əkbərov artıq həbsdədir. Nəcməddin Sadıkov da belə bir aqibətdən sığortalanmayıb. Həbs qərarı veriləcəksə, bir anın içində qandallanacaq. Ona Rusiyadakı "dayı"ları kömək edə bilməyəcək". **Nəcməddin Sadıkov 1993-cü ildən 2020-ci il Vətən müharibəsinin ilk ongünlüyünə qədər Müdafiə Nazirliyinin Baş Qərargah rəisi vəzifəsini daşıyıb**: "Ətrafına yığdığı kadrların köməyi ilə Müdafiə Nazirliyi sistemində rüşvət və korrupsiya bataqlığı yaradıb. Sonuncu həbs olunan Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik, həmçinin Təhsil-Tədris və Elmi Tədqiqatlar İdarəsinin sabiq baş zabiti Zahid Niftəliyev buna bariz nümunədir. Hazırkı mərhələdə onun işi üzrə 17 nəfər zərərçəkmiş şəxs kimi tanınıb. Araşdırmalar zamanı məlum olub ki, Zahid Niftəliyev Müdafiə Nazirliyinin vəzifəli şəxsləri ilə əlbir olaraq həm müddətli hərbi qulluqçuların, həm də zabit-gizir heyətinə daxil olan hərbi qulluqçuların xidməti yerlərinin pul müqabilində dəyişdirilməsini təmin edib. Qadın hərbi qulluqçuların isə qanunsuz yolla xidmətə qəbul edilmələrini təşkil edib. O, həmçinin qanunsuz sahibkarlıqla da məşğul olub. Nəcməddin Sadıkovun ən yaxın adamı Zahid Niftəliyev dələduzluq və vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərməyə təhrik etmədə ittiham (Cinayət Məcəlləsi, maddə 178.2.1, 178.2.2, 178.2.3, 178.2.4, 32.4 312.2) olunur. Lakin ibtidai istintaqın gedişində onun barəsindəki ittihamın daha ağır maddələrə tövsif olunma ehtimalı var. Yeni Nəcməddin Sadıkovun ətrafı bu xislətdə olan kadrlardır. Ətrafını isə onun özü formalaşdırıb. Xatırlayırsızsa, Vətən müharibəsinin ilk günlərində, 2020-ci il oktyabrın 4-də mətbuatda Azərbaycan Ordusu rəhbərliyinin döyüş tapşırıqlarının icrasını planlaşdırması və təşkil etməsi haqda xəbər yayıldı. Həmin xəbərə əlavə olunan fotolardan birində Nəcməddin Sadıkov gözlərini obyektivə zilləmiş şəkildə tuş gəlmişdi. Oktyabrın 10-da isə Nəcməddin Sadıkov barəsində olan və Müdafiə Nazirliyinin saytında yer alan məlumat bölümü yoxa çıxdı. Əslində həmin gündən Nəcməddin Sadıkovun həbsi gündəmdədir. Bunu özü də bilir. Çünki onun neqativ, daha çox düşmənə sərf edən fəaliyyəti ən təvazökar araşdırma ilə cinayət işinin materialı ola bilər".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# MMC rəhbərinin bəraət qərarı ləğv edildi


Füzuli Adıgözəlov

**Külli miqdarda mənimsəmədə və vergidən yayınmaqda təqsirli bilinərək 10 il azadlıqdan məhrum edilmiş "Güllübulaq" MMC-nin təsisçisi Füzuli Adıgözəlovun bəraət alması ilə bağlı qərardan verilmiş protestə baxılıb.**

Musavat.com-un "Qafqazinfo"ya istinadən xəbərinə görə, Ali Məhkəmədə keçirilən iclasda dövlət ittihamçısı çıxış edib.

Prokuror bəraət qərarının ləğv edilməsini, işin yeni apellyasiya baxışına təyin edilməsini xahiş edib.

Hakim Əziz Seyidovun sədrlik etdiyi hakimlər heyəti tərəflərin münasibətini öyrəndikdən sonra prokurorun protestini əsaslı sayıb.

Qərara əsasən F.Adıgözəlov barəsindəki bəraət qərarı ləğv edilib, iş yenidən baxılması üçün apelyasiya məhkəməsinə qaytarılıb.

Qeyd edək ki, F.Adıgözəlov 2020-ci ildə həbs edilib.

İttihamda deyilir ki, təqsirləndirilən şəxs 2011-2015-ci illərdə Türkiyədən müxtəlif məhsullar idxal edib, "Güllübulaq" MMC-yə məxsus 1 milyon 885 min manat hesabına həmin malların dəyərini və gömrük rüsumlarını ödəyib, lakin malların satışından əldə etdiyi gəlirdən Cəmiyyətə ödəniş etməyib. O, həmçinin 2011-2015-ci illər ərzində 8 milyon 396 min manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən qəsdən yayınmaqda ittiham olunub.

F.Adıgözəlov Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilmişdi. 2 il sonra Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə ona bəraət verilərək məhkəmə zalından azadlığa buraxılmışdı.

YENİ MÜSAVAT
N 123 (8259) 20 iyul 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# “Xüsusilə qızlarımızın olimpiadalarda iştirakı və qalib gəlməsini çox istərdik”

## Günel Səfərova: “Sevindirici haldır ki, olimpiada qaliblərinin sayı getdikcə artır”

**“Şagirdlərimizin beynəlxalq olimpiadalarda iştirakı və uğur əldə etməsi əlbəttə ki, motivasiya üçün önəmlidir. Məlumdur ki, bir çox olimpiadalarda qalib gələn gənclər ali təhsil müəssisələrinə qəbul zamanı bir sıra üstünlüklər əldə edirlər”.**

Bu fikirləri “Yeni Müsavat”a **Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Günel Səfərova** bildirdi. O qeyd etdi ki, beynəlxalq olimpiadalarda uğur qazandıqda bir neçə xarici universitetdən də təklif gəlir: “Azərbaycanda təhsil sahəsində gənclərin uğur qazanması ilə əlaqədar kütləviliyi təmin etmək çox çətindir. Fərdi şəkildə qazanılan uğurlar daha çox nəzərə çarpır. Bunu təhsilimizin uğuru kimi dəyərləndirə bilərikmi? Bu sual müzakirə oluna bilər. Təcrübə onu göstərir ki, Elm və Təhsil Nazirliyinə tabe olan liseylər və məktəblərində təhsil alan şagirdlərin beynəlxalq olimpiadalarda qalib gəlmək üçün bilik və bacarıqları kifayət qədərdir. Əlbəttə ki, daha çox sayda şagirdin uğur qazanmasını istərdik. Xüsusilə qızlarımızın olimpiadalarda iştirakı və qalib gəlməsini çox istərdik. İstənilən halda hazırkı nəticələr də qənaətbəxşdir. Sevindirici haldır ki, olimpiada qaliblərinin sayı getdikcə artır. Yeri gəlmişkən, texniki fənlərə marağın artması tendensiyası nəzərə çarpır. Bu da dünyadakı təhsil trendini izlədiyimizin göstəricisidir”.

**G.Səfərova təhsildə keyfiyyətə istiqamətlənmiş çox sayda layihəyə start verildiyinə diqqət çəkdi:** “Yeni qaydalar cəmiyyətdə heç də hər zaman müsbət tərəfdən müzakirə olunmur. Elə tədbirlər var ki, onların nəticəsi dərhal görünmür, çünki gözlənilən nəticə üçün uzun müddət lazımdır. Əminəm ki, proses uğurla davam etsə, 10-15 ilə təhsil sahəsində müsbət nəticələrin şahidi olacağıq. İctimai Şura adından Yaponiyanın Tokio şəhərində keçirilən Beynəlxalq Fizika Olimpiadasında iştirak edən şagirdlərə Azərbaycanı təmsil etdikləri üçün çox təşəkkür edirəm”.



Xatırladaq ki, 10-17 iyul tarixlərində Yaponiyanın Tokio şəhərində keçirilən Beynəlxalq Fizika Olimpiadasında (IPHO) şagirdlərimiz 1 gümüş, 3 bürünc medal və 1 həvəsləndirici mükafat qazanıblar.

Qeyd edək ki, Azərbaycan məktəbliləri, riyaziyyat fənni üzrə: Beynəlxalq Riyaziyyat Olimpiadası (İMO), Balkan Riyaziyyat Olimpiadası (BMO), Yeniyetmələrin Balkan Riyaziyyat Olimpidası (JBMO), Avropa Qızlar Riyaziyyat Olimpiadası (EGMO) Qafqaz Riyaziyyat Olimpiadası, Beynəlxalq Meqapolislər Olimpiadası, Beynəlxalq Jautıkov Olimpiadası (İZHO) fizika fənni üzrə: Beynəlxalq Fizika Olimpiadası (İPHO), Avropa Fizika Olimpiadası (EuPHO), Beynəlxalq Jautıkov Olimpiadası (İZHO), Yeniyetmələrin Elm Olimpiadası (İJSO) kimya fənni üzrə: Beynəlxalq Kimya Olimpiadası (İCHO), Beynəlxalq Mendeleyev Kimya Olimpiadası (İMCHO), Yeniyetmələrin Elm Olimpiadası (İJSO) biologiya fənni üzrə: Beynəlxalq Biologiya Olimpiadası (İBO), Yeniyetmələrin Elm Olimpiadası (İJSO) informatika fənni üzrə: Beynəlxalq İnformatika Olimpiadası (İOİ), Yeniyetmələrin Avropa İnformatika Olimpiadası (EJOİ), Beynəlxalq Jautıkov Olimpiadası (İZHO) da iştirak edirlər. Məktəblilərimizin beynəlxalq fənn olimpiadalarında daha uğurlu çıxışının təmin edilməsi məqsədilə Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən beynəlxalq olimpiadalara hazırlıq mərkəzləri yaradılmış və fəaliyyətə başlayıb. Belə ki, 5 müxtəlif fənn üzrə və müxtəlif yaş qrupları üzrə 300-dən çox şagird həmin mərkəzlərdə olimpiadalara hazırlıq prosesinə qoşulurlar. Bu mərkəzlərdə şagirdlərin nəzəri və praktiki hazırlıqlarının təmin edilməsi üçün orta məktəblərdən, ali məktəblərdən mütəxəssislər dəvət edilir, eyni zamanda əcnəbi mütəxəssislərin də dəstəyi ilə hazırlıqlar aparılmaqdadır.

Bu mərkəzlərə istedadlı şagirdlərin cəlb edilməsi məqsədilə və şagirdlərlə uzunmüddətli çalışma imkanın olması məqsədilə aşağı sinif şagirdləri ( VI-VII sinif ) arasında fənn müsabiqələri təşkil edilir və keçirilməkdədir. Həmin fənn müsabiqələrinin nəticələrinə əsasən qalib olan hər fənn üzrə 30 yaxın şagird mərkəzlərə dəvət edilir.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyinin saytında qeyd olunan məlumata görə, 1992-ci ildən günümüzədək Azərbaycan məktəblilərinin iştirak etdikləri müxtəlif beynəlxalq fənn olimpidalarında 30 qızıl, 226 gümüş və 263 bürünc medal olmaqla, 519 medal qazanıblar. Son 5 ildə məktəblilərimiz 5 qızıl, 48 gümüş və 121 bürünc medal olmaqla ümumilikdə 174 medal əldə ediblər.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ**

# Korrupsiyaya görə 28 şəxs cinayət başında yaxalanıb

**Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində birinci yarımildə 203 müraciət və digər məlumatlara cinayət xarakterli material kimi baxılıb, 166 (82%) material üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb, 37 (18%) material üzrə isə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarlar qəbul edilib.**



APA xəbər verir ki, bunu iyulun 19-da baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2023-cü ilin birinci yarımili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsində Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov deyib.

O bildirib ki, əməliyyat qurumları tərəfindən 85 cinayət işi başlanılıb, keçirilmiş 19 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 28 şəxs cinayət başında yaxalanıb, habelə axtarışda olan 18 nəfər saxlanılıb:

“Hesabat dövrü ərzində Baş İdarə tərəfindən 218 şəxs barəsində 144 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmişdir. Həmin işlərdən 18 hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat aparılaraq, hüquqi şəxslər və rəhbərləri məhkəmə məsuliyyətinə verilmişdir. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılmış, qalanları isə hazırda məhkəmə baxışındadır.

İstintaqı tamamlanmış cinayət işlərindən 136 şəxs barəsində 68 iş ağır cinayətlər məhkəmələrinə, 4 şəxs barəsində 4 iş hərbi, eyni zamanda 78 şəxs barəsində 72 cinayət işi isə rayon (şəhər) məhkəmələrinə göndərilib".

# Erməni jurnalistlər Azərbaycana gələcək

**Azərbaycan Xarici İşlər Nazirliyi və Mətbuat Şurası Ermənistan media nümayəndələrinin hansı qaydalar əsasında Azərbaycana səfər edə biləcəklərinə aydınlıq gətirib.**

“Report”un məlumatına görə, Mətbuat Şurasının sədri Rəşad Məcid nazirlikdə keçirilən brifinqdə bildirib ki, Ermənistan jurnalistləri Azərbaycana səfər etmək istəsələr, bu sahədə problem olmaz.

Onun sözlərinə görə, müxtəlif dövrlərdə Tiflisdə Azərbaycan və Ermənistan jurnalistlərinin görüşləri təşkil edilib.

Torpaqlarımız işğaldan azad ediləndən sonra artıq yeni şərait yarandığını söyləyən Mətbuat Şurasının sədri qeyd edib ki, Azərbaycan qanunları çərçivəsində Azərbaycana gəlmək istəyən Ermənistan jurnalistləri üçün qapı açıqdır: “Ermənistan jurnalistləri Azərbaycana səfər etmək istəsələr, bu sahədə problem olmaz”.

XİN-in mətbuat katibi Ayxan Hacızadə isə deyib ki, Azərbaycanda keçirilən beynəlxalq tədbirlər zamanı xarici nümayəndə heyətlərinin tərkibində ermənəsilli jurnalistlər də olur: “Bütün səfər edənlərin Azərbaycan qanunlarına hörmət etməsi zəruri amillərdəndir. Bu istiqamətdə növbəti illərdə müsbət addımların atılması gözlənilir”.

YENİ MÜSAVAT
N 123 (8259) 20 iyul 2023

**“Cənnət anaların ayaqları altındadır”. Ancaq bəzən elə “ana” da olur ki, dünyaya gətirdiyi övladını - 15 günlük körpəsini zibil qabına atır. Belə hallarla vaxtaşırıq rastlaşırıq. Son olaraq Sabunçu rayonunda belə hadisə baş verib. Sabunçu rayonunda yeni doğulmuş körpənin məişət tullantıları qutusunda tapılması barədə ərazi üzrə Sabunçu Rayon Polis İdarəsinin 12-ci Polis Şöbəsinə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən APA-ya verilən xəbərə görə, dərhal polis şöbəsinin əməkdaşları tərəfindən uşaq həmin yerdən götürülərək tibb müəssisəsinə yerləşdirilib.**

Körpənin anası S.Qasımova polis əməkdaşları tərəfindən qısa zamanda müəyyən edilərək Sabunçu RPİ-nin 12-ci Polis Şöbəsinə gətirilib. Hazırda həmin şəxs barəsində toplanmış materiala hüqiqi qiymət verilməsi üçün iş Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib.



# Övladını zibilliyə atan ananı hansı cəza gözləyir - uşaqdan imtina ediləndə, körpə hara verilə bilər?

## **Vəkil Turan Abdullazadə:** “Ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi...”

Məişət tullantıları qutusunda tapılan yeni doğulmuş körpə 1 saylı Körpələr Evinin göndərişi əsasında TƏBİB-in tabeliyindəki Kliniki Tibbi Mərkəzin nəzdində fəaliyyət göstərən Ə.F.Qarayev adına 2 nömrəli Klinik Uşaq Xəstəxanasının Reanimasiya şöbəsinə yerləşdirilib. TƏBİB-dən bildirilib ki, körpəyə mərkəzi sinir sisteminin dəqiqləşdirilməmiş zədələnməsi, düşməmiş göbək diaqnozu qoyulub. Ona ilkin tibbi yardım göstərilib, lazımi müayinələrdən keçirilib. Hazırda körpənin vəziyyəti ağırdır.

Düzdür, burada qadını qınayanlarla yanaşı, onu aldadan, çarəsiz buraxan qarşı cins nümayəndəsini də tənqid edirlər. Ancaq nə olur-olsun, bir insan, bir qadın körpəni zibil qutusuna atmamalıdır. Bu, həm hüquqi, həm mənəvi cinayətdir. Belə əməli törədəni hansı cəza gözləyir?

Yeri gəlmişkən, uşağından imtina etmək istəyən adam körpəni hansı quruma təhvil verə bilər? Belə bir mexanizm varmı?

**Vəkil Turan Abdullazdə mövzu ilə bağlı “Yeni Müsavat”a dedi ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 143-cü maddəsində təhlükədə qoyma cinayəti öz əksini tapıb:** "Orada qeyd olunur ki, həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək imkanından məhrum olan şəxsi bilə-bilə köməksiz qoyma, əgər həmin şəxsi köməksiz qoyan onun qayğısına qalmalı idisə və ya onun özü zərərçəkmiş şəxsi həyat və sağlamlığı üçün təhlükəli vəziyyətdə qoyduqda, zərərçəkmiş şəxsə kömək göstərmək imkanı olduğu halda bunu etmədikdə - min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bundan başqa, Cinayət Məcəlləsinin 121-ci maddəsinə əsasən ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bundan başqa, Ailə Məcəlləsinin tələblərinə əsasən övladını köməksiz vəziyyətdə küçəyə atan şəxslər valideynlik hüquqlarından da məhrum edilə bilərlər.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 64.0. maddəsinə əsasən valideynlər (onlardan biri) valideynlik hüquqlarından aşağıdakı hallarda məhrum edilə bilərlər: 64.0.1. öz valideynlik vəzifələrini yerinə yetirmədikdə; 64.0.2. alimenti qəsdən ödəmədikdə; 64.0.3. heç bir üzrlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı müalicə, tərbiyə, əhalinin sosial müdafiəsi müəssisəsindən və digər analoji müəssisələrdən götürməkdən imtina etdikdə; 64.0.4. valideynlik hüquqlarından sui-istifadə etdikdə; 64.0.5. uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə; 64.0.6. xroniki alkoqol və narkomaniya xəstəsidirsə; 64.0.7. uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə".

Vəkil əlavə edib ki, həmin məcəllənin 65.1. maddəsinə əsasən valideynlik hüquqlarından məhrumetmə məhkəmə qaydasında həll edilir.

Həmin məcəllənin 65.4. maddəsinə əsasən valideynlik hüquqlarından məhrumetmə işinə baxılarkən məhkəmə valideynin (onlardan birinin) hərəkətlərində cinayət əməli olduğunu aşkar edərsə, bu barədə prokurora məlumat verməyə borcludur.

Həmin məcəllənin 66.1. maddəsinə əsasən valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşağa münasibətdə həmin uşaqla qohumluq faktına əsaslanan bütün hüquqlarını, o cümlədən bu məcəllənin 82-ci maddəsinə əsasən uşaqdan təminat almaq, habelə uşaqlar üçün təyin edilmiş dövlət müavinəti almaq və imtiyazlardan istifadə etmək hüququnu itirirlər.

Həmin məcəllənin 66.6-cı maddəsinə əsasən uşaq, valideynlərin (onlardan birinin) valideynlik hüquqlarından məhrum edilməsi haqqında məhkəmənin qətnaməsindən 6 ay keçəndən sonra övladlığa götürülə bilər.

Həmin məcəllənin 72.1. maddəsinə əsasən uşağın sağlamlığı və ya həyatı birbaşa təhlükədə olduqda, müvafiq icra hakimiyyəti orqanı uşağı valideynlərdən (onlardan birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq almaq hüququna malikdir. Müvafiq icra hakimiyyəti orqanı bunu müvafiq akt əsasında həyata keçirir.

Həmin məcəllənin 114.1. maddəsinə əsasən valideynlər öldükdə, valideynlik hüquqlarından məhrum olunduqda, valideynin hüquqları məhdudlaşdırıldıqda, valideynlər fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, valideynlər xəstələndikdə, uzun müddət uşaqlarla birlikdə olmadıqda, valideynlər uşaqların tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən yayındıqda, o cümlədən sosial xidmət müəssisələrindən öz uşaqlarını götürməkdən imtina etdikdə, eləcə də valideyn himayəsinin olmadığı digər hallarda uşaqların hüquq və mənafelərinin müdafiəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir".

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

## Bakıda zibilliyə atılan 15 günlük körpənin son durumu

**Xəbər verdiyimiz kimi, Bakıda 10-15 günlük körpə zibil qutusuna atılıb.**

BEY.AZ-ın sorğusuna cavab olaraq TƏBİB-dən bildirilib ki, körpənin müalicəsi davam etdirilir:

“Sabunçu rayonunda məişət tullantıları qutusunda tapılan yeni doğulan körpənin müalicəsi TƏBİB-in tabeliyindəki Kliniki Tibbi Mərkəzin nəzdində fəaliyyət göstərən Ə.F.Qarayev adına 2 nömrəli Klinik Uşaq Xəstəxanasının Reanimasiya şöbəsində davam etdirilir. Vəziyyəti stabil olaraq qalır, göbəyi düşməyib. Götürülən analizlərin cavabları müsbətdir, əlavə analizlərin də götürülməsi nəzərdə tutulub”.

Xatırladaq ki, yeni doğulan körpə 1 saylı Körpələr Evinin göndərişi əsasında Ə.F.Qarayev adına 2 nömrəli Klinik Uşaq Xəstəxanasına yerləşdirilib, ona mərkəzi sinir sisteminin dəqiqləşdirilməmiş zədələnməsi, düşməmiş göbək diaqnozu qoyulub.

Qeyd edək ki, körpənin anası S.Qasımova polis əməkdaşları tərəfindən qısa zamanda müəyyən edilərək Sabunçu RPİ-nin 12-ci Polis Şöbəsinə gətirilib. Həmin şəxs barəsində toplanmış materiala hüquqi qiymət verilməsi üçün iş Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib.

## Təhsil tələbə krediti üzrə müraciətlərin qəbuluna başlanılır



**20 iyul saat 12:00-dan 2023-2024-cü tədris ilinin payız semestri üçün təhsil tələbə krediti (TTK) üzrə müraciətlərin qəbuluna başlanılır.**

Bu barədə APA-ya Elm və Təhsil Nazirliyindən xəbər verilib.

## İldə bir dəfə İİV-lə bağlı testdən keçmək tövsiyə olunur

**İldə bir dəfə İİV-lə bağlı testdən keçmək tövsiyə olunur.**

APA xəbər verir ki, bunu **Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Günəş Cəfərova** deyib.

O bildirib ki, bəzi hallarda yoluxan şəxslər infeksiyaya yoluxduqlarını sadəcə təsadüfi müayinə zamanı aşkarlaya bilirlər:

“Buna görə tövsiyə olunur ki, hər kəs ildə bir dəfə müayinə üçün həkimə müraciət etsin. İİV infeksiyasına yoluxan şəxslər ilkin mərhələdə halsızlıq, iştahsızlıq və s. simptomlar hiss etsələr də, bəzi şəxslərdə ilk mərhələdə heç bir simptom müşahidə edilməyə də bilər”.

Həkim bildirib ki, İİV-ə yoluxan və yanaşı xəstəliklərbydən, yaşından, müalicəyə sadiqliyindən asılı olaraq müalicəyə başlayan hər kəs pulsuz olaraq 1, 2, 3 ay olmaqla müvafiq preparatlarla təmin olunur:

“İİV xəstələri xarici ölkələrə getdiklərində öz razılıqları ilə dərmanları qohumlarına verilə bilər. Bu xəstəliyin müalicəsi anonim şəkildə aparılır. Buna görə xəstələr hansısa səbəbə görə xarici ölkəyə getməli olduqları zaman öz razılıqları ilə müalicə üçün lazımi preparatları qohumlarına verə bilirik. Təbii ki, bu xəstəliyin müalicəsi anonim şəkildə aparılır və bu, həmin şəxsin müalicəyə sadiqliyi və müalicənin davamlılığını qoruması üçündür”.

YENİ MÜSAVAT
N 123 (8259) 20 iyul 2023

**Böyük Britaniya parlamenti “Qeyri-leqal miqrasiya haqqında” qanun layihəsini qəbul edib. Bu qanun hakimiyyət orqanlarına Birləşmiş Krallığa qanunsuz yolla daxil olan və sığınacaq üçün müraciət edən mühacirləri ölkədən çıxarmağa imkan verəcək. Aprel ayında İcmalar Palatasında təsdiqlənən qanun layihəsi iyulun 18-də Lordlar Palatasının da dəstəyini qazanıb.**

# Britaniyadan miqrantlara qırmızı işıq - Avropa qaçqınlardan imtina edir...

## Hüquqşünas: “Qoca qitə miqrant böhranı ilə üz-üzədir”

Kral III Çarlz layihəni imzaladıqdan sonra qanun qüvvəyə minəcək. Hər il artan qanunsuz miqrasiya problemini həll etmək məqsədi daşıyan qanun layihəsi hökumət tərəfindən 2023-cü ilin martında təqdim edilib. Qanun qüvvəyə minəcəyi təqdirdə Böyük Britaniya Daxili İşlər Nazirliyinə qeyri-leqal mühacirləri həbs etmək, sığınacaq üçün müraciətlərinə baxmamaq və üçüncü ölkələrə deportasiya etmək hüququ verəcək. Qanun layihəsi BMT-nin sərt tənqidinə tuş gəlib. İnsan Hüquqları və Qaçqınların İşi üzrə ali komissarlıqların birgə bəyanatında Londonun qanunvericilik təşəbbüsü “Birləşmiş Krallığın beynəlxalq insan haqları və qaçqınların hüquqları üzrə öhdəliyini pozması” kimi dəyərləndirilib.



Qeyd edək ki, hakim Mühafizəkarlar Partiyasının qeyri-leqal miqrasiya ilə mübarizə barədə vədlərinə baxmayaraq, son beş ildə La-Manş boğazını keçərək ölkəyə daxil olan mühacirlərin sayı durmadan artır. Daxili İşlər Nazirliyinin məlumatına görə, 2018-ci ildə ölkəyə dəniz yolu ilə 299 qanunsuz daxilolma faktı qeydə alınmışdısa, 2019-cu ildə 1,8 min, 2020-ci ildə 8,4 min, 2021-ci ildə 28,5 min, 2022-ci ildə isə 45,7 min nəfər bu yoldan istifadə edib. Rəsmi statistikaya əsasən, qeyri-leqal mühacirlərin saxlanılması britaniyalı vergiödəyicilərinə gündə 6 milyon funt-sterlinqə başa gəlir.

Artıq BMT-nin İnsan Haqları üzrə Ofisi və BMT-nin Qaçqınlar üzrə Agentliyi bu qanunla bağlı bəyanat da verib. Sənəddə deyilir ki, “Britaniya parlamenti tərəfindən qəbul edilmiş qeyri-leqal miqrasiya qanunu ölkənin beynəlxalq insan hüquqları və qaçqın hüququna dair öhdəlikləri ilə ziddiyyət təşkil edir. Bu, beynəlxalq müdafiəyə ehtiyacı olan insanlar üçün ağır nəticələrə səbəb olacaq. Qanun təqiblərlə üzləşən kəsin Böyük Britaniyaya sığınacaq almaq hüququnu ləğv edir. Bu, onların vəziyyətlərinin nə qədər məcburedici olmasından asılı olmayaraq, qaçqınların müdafiəsi və ya digər insan hüquqları iddialarını təqdim etmələrini qadağan edir. Bundan əlavə, bu, onların başqa ölkəyə göndərilməsini tələb edir və orada onların mütləq müdafiəyə çıxış əldə edə biləcəklərinə heç bir zəmanət verilmir. Böyük Britaniya onilliklər ərzində öz beynəlxalq öhdəliklərinə uyğun olaraq ehtiyacı olanlara sığınacaq verib - bu ənənə ilə haqlı olaraq fəxr edir. Yeni qanunvericilik çoxlarını qoruyan, qaçqınları beynəlxalq hüququ pozaraq ciddi risklərə məruz qoyan hüquqi çərçivəni əhəmiyyətli dərəcədə aşındırır”.

Qanun layihəsi təqib riski altında olub-olmamasından, insan hüquqlarının pozulmasından və ya insan alverindən qurtulmuş olub-olmamasından asılı olmayaraq, Böyük Britaniyada müdafiə olunmaq imkanını rədd edir.

**BMT-nin İnsan Haqları üzrə Ali Komissar Volker Turk isə bildirib ki, bu şərtlər altında geri göndərilmə, kütləvi deportasiya ailə və şəxsi həyatla bağlı haqlara ziddir**. “Qanunvericilik Böyük Britaniyaya qeyri-müntəzəm gələn insanların onsuz da həssas vəziyyətini ağırlaşdıracaq, onların insan hüquqlarından istifadəni kəskin şəkildə məhdudlaşdıracaq və onları həbs və yoxsulluq riski ilə üz-üzə qoyacaq. Nəticədə onların sağlamlıq, adekvat həyat səviyyəsi və işləmək hüquqları sui-istifadə riskinə, istismara məruz qalacaq”, - BMT institutlarının birgə bəyanatında vurğulanıb.

Avropa coğrafiyasında miqrantlarla bağlı qaydalar əksər ölkələrdə sərtləşdirilir. Almaniya da neçə illərdir bu yöndə sərt siyasət aparır və xeyli mühaciri, o cümlədən azərbaycanlıları ölkəsindən deportasiya edib. Avropa miqrantları niyə qovur? Səbəb nədir?

**“Bakı Hüquq Şirkəti”nin rəhbəri Natiq Ələsgərov mövzu ilə bağlı “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, istənilən halda miqrantların geri qaytarılması çox problemli bir məsələdir:** “Bu gün Avropa yaxın tarixinin ən böyük humanitar fəlakəti olan miqrant böhranı ilə üz-üzədir. Şimali Afrika, Yaxın və Orta Şərqdən qaçqın və məcburi köçkünlərin böyük bir kütləsi müharibələrdən, aclıqdan, səfalətdən xilas olmaq üçün Avropaya üz tutub. Qeyri-leqal miqrant axınının kəskin artdığı Avropada hazırda yaranmış vəziyyət BMT tərəfindən İkinci Dünya müharibəsindən bəri dünyada ən böyük qaçqın böhranı hesab olunur. Çünki qitəyə üz tutanların əksəriyyəti hazırda münaqişələrin, daxili müharibələrin, terrorizmin, xaosun hökm sürdüyü ölkələrdə yaşayış şəraitinin, humanitar vəziyyətin kəskin pisləşməsi ilə əlaqədar evlərini tərk etməyə məcburiyyətində qalanlardır. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının açıqlamasına görə, təkcə 2015-ci ildə Aralıq dənizini 300 min nəfərə yaxın miqrant keçib. 2016-cı ildə isə Aralıq dənizi vasitəsilə Avropaya 357 min nəfərdən çox miqrant gəlib. Sadəcə, bu iki il ərzində qeyri-leqal miqrasiyanı ifadə edən rəqəmlər hazırda problemin nə qədər dərin olduğunu anlamağa imkan verir. Miqrasiya axınının genişlənməsi bu prosesin bu qədər dramatik hal almasında bir formada iştirak edən Avropanın özündə də yeni problemlərin artmasına rəvac verib. İlk növbədə miqrasiya iqtisadi həyata təsir edərək qlobal iqtisadiyyatın yaranmasını, transmilli korporasiya və beynəlxalq əmək bazarının formalaşmasını şərtləndirir. İnformasiya məkanına təsir edərək müvafiq qlobal sosial, eləcə də cinayətkar şəbəkələrin formalaşmasına səbəb olur. Qlobal miqrasiya prosesləri dövlətin həyatında milli-siyasi münasibətlərin mahiyyətinə də təsir göstərir. Son zamanlar bir sıra dövlətlərdə milli, irqi zəmində diskriminasiyanın şiddətlənməsi bunun bariz sübutudur. Bununla belə, miqrantların bir ölkədən qaytarılması da yaxşı hal deyil. Bütün parametrləri ilə, hansı prizmadan yanaşsaq pis haldır. Böyük Britaniyaya pənah gətirən insanların geri qaytarılması daha böyük böhran yarada, insan faciələri ilə sonunclana bilər. İnsanlar qaçdıqları ölkələrə qaytarılmaqla repressiyalara, işgəncələrə, qeyri-insani rəftara məruz qala bilərlər. Bu da yolverilməzdir”.

**Hüquqşünas deyib ki, öz ev-eşiyini yaşam şərtləri və digər təhdidlərə görə tərk edən insanlara pənah apardıqları dövlətlər yardım etməsə, insanlar ciddi yaşam problemləri ilə üz-üzə qalmalı olacaqlar:** “Bu insanların problemləri kifayət qədər böyük olacaq. Yəqin ki, gedişatın özündə müəyyən səhvlər olub. Miqrantlar getdikləri ölkənin miqrant qəbulu qaydalarına riayət etmirlər, onu öncədən öyrənmirlər və bilmirlər. Amma bu, həmin insanların geri qaytarılması üçün əsas ola bilməz. Əks halda, insanlar ciddi yaşam problemləri ilə üz-üzə qalmalı olacaqlar”.

**Hüquqşünas bildirib ki, Avropada miqrant məsələlərinin həllinə dair bir sıra sənədlər qəbul olunub:** “Əhalinin miqrasiyasının müxtəlif aspektləri müntəzəm olaraq beynəlxalq konfranslarda, görüşlərdə, həmçinin AŞ PA-nın təşkilatçılığı ilə müxtəlif dövlətlərdə miqrasiya probleminə həsr olunmuş iclaslar keçirilir. Problemdən çıxış yolu kimi yenə də keçmiş təcrübələrə istinad etmək ehtiyacı yaranır. Əgər zamanında Avropanı yaradan torpaqlar və dənizlər vasitəsilə fərdlərin və xalqların daimi hərəkəti olmasaydı, bu gün köhnə qitədə həyat çox fərqli olardı. Avropa dəyərlərinin formalaşmasında, müxtəlif mədəniyyətlərin, inanc və ənənələrin yaranmasında və mühafizəsində miqrantların və ya onların övladları olan alimlərin, siyasətçilərin, tanınmış mütəfəkkirlərin xidmətləri danılmazdır. Ona görə də multikulturalizm dəyərlərini, mədəniyyətlər arasında dialoq və xoşgörünü qorumaq bu gün həyati əhəmiyyət kəsb edən məsələdir. Böyük Britaniya bu addımı atmaqla bütün Avropada miqrantlara qarşı münasibəti mənfi istiqamətə yönəldəcək. Bu isə ümumilikdə dünyaya yaxşı nəsə vəd etmir”.

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**



## Qadınlar təhlükəni mobil tətbiq vasitəsilə deyə biləcəklər

### Kişilərin də zorakılığa məruz qalması halları çoxalıb

**“Hələ ki məişət zorakılığı ilə bağlı bütün ölkəni əhatə edəcək bir mobil tətbiq yoxdur”. Musavat.com xəbər verir ki, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova 2023-cü ilin ilk 6 aylıq fəaliyyətinə həsr olunmuş brifinqdə deyib.**

O bildirib ki, qeyri-hökumət təşkilatları bununla bağlı təklif verib: “Bu mobil tətbiqin yaradılması məsələsi diqqətimizdədir. Düşünürəm ki, yaxın zamanlarda müvafiq məlumat ictimaiyyətə bildiriləcək”.

“Gender bərabərliyinin təminatları haqqında” Qanunun 20-ci maddəsinə uyğun olaraq cari ilin sentyabr ayında Milli Məclisin plenar iclasında gender bərabərliyinin təmin edilməsi ilə bağlı 2022-ci ilə dair məlumat təqdim ediləcək.

Bunu da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova 2023-cü ilin ilk 6 aylıq fəaliyyətinə həsr olunmuş brifinqdə bildirib.

Onun sözlərinə görə, cari yarımil ərzində komitə tərəfindən 6 müxtəlif mövzuda araşdırma və təhlil yekunlaşıb:

“Bunlardan birincisi ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsidir. Daha sonra Azərbaycanda erkən uşaqlıq dövründə xidmətlərin əlçatanlığı və təminatı, "uşaqlara qarşı zorakılıq hallarının səbəbləri, miqyası, nəticələri və qarşısının alınması: qanunvericilik və onun tətbiqi praktikası", təhsil müəssisələrində rəhbər vəzifələrdə gender bərabərsizliyi, medianın intiharlara təsiri, erkən nikah hallarıdır".

Bahar Muradova əlavə edib ki, kişilərin də son dövrlər zorakılığa məruz qalmaları barədə müraciətləri çoxalıb. Onlar zorakılığa məruz qaldıqları barədə məlumatları aidiyyəti qurumlara bildiriblər.

❑ **Afaq MİRAYİQ, Musavat.com**



# BMT-dən dünyaya "isti SOS" - bəşəriyyət təhlükənin ağuşundadırmı?

## Qorxmaz İbrahimli: "Təbiətə ən çox zərəri ABŞ, Rusiya, Çin, Hindistan verir"

## Ənvər Əliyev: "50-ci illərdən etibarən planetdə kiçik buzlaşma dövrünün başlanacağı barədə proqnozlar verilir"

**Uzun illərdir qlobal istiləşmədən, onun fəsadlarından danışılır və qarşıda böyük fəlakətlərin, buzluqların əriyəcəyinin, dünyanın xeyli hissəsinin su altında qalacağının anonsu verilir.**

Düzdür, son bir neçə ildə yay aylarına xas olmayan sərin, bol yağıntılı havaların keçdiyinin də şahidi oluruq. Ancaq bütün bunların fonunda Birləşmiş Millətlər Təşkilatı xəbərdarlıq edib ki, dünya getdikcə daha intensiv isti hava dalğaları ilə üzləşməyə hazır olmalıdır.

APA AFP-yə istinadən xəbər verir ki, bu barədə BMT-nin Ümumdünya Meteorologiya Təşkilatının ekstremal istilər üzrə baş müşaviri Con Neyrn Cenevrədə jurnalistlərə bildirib.

"Bu hadisələr intensivliyi artmağa davam edəcək və dünya daha güclü isti hava dalğalarına hazırlaşmalıdır", - deyə o qeyd edib.

**AMEA-nın Coğrafiya İnstitutunun şöbə müdiri, seysmoloq alim Ənvər Əliyev "Yeni Müsavat"a açıqlamasında xatırladtı ki, BMT-nin xüsusi alimlər qrupu iqlim dəyişikliyi, qlobal istiləşmə ilə bağlı müraciət hazırladılar və insanları təşvişə salmağın düzgün olmadığını qeyd etdilər:** "Planetdə bəzi qanunauyğunluqlar var. Onlardan biri də dövrilikdir. Məlumdur ki, buzlaşma uzun illər öncə baş vermişdi. 50-ci illərdən etibarən planetdə kiçik buzlaşma dövrünün başlanacağı barədə proqnozlar verilir. Hazırda planetin ən böyük problemlərindən biri torpaq məsələsidir. Dünya əhalisinin təxminən 80 faizini qida ilə təmin etmək də müzakirə mövzularında biridir. Əhalinin qida təhlükəsizliyi, deqradasiya, suvarma sistemlərinin yenilənməsi və s. kimi önəmli məsələlər də müzakirə predmetidir. İqlim dəyişikliyinə hazır olmaq üçün ilk növbədə suvarma sistemləri yenilənməlidir. Əhalinin artımı ilə əlaqədar olaraq bu və ya digər sahələrdə texniki vasitələr təkmilləşdirilməli, müasirləşdirilməlidir. Suvarma sistemləri min illər ərzində dəyişilməyib. Sudan istifadə məsələsini diqqətdə saxlamalıyıq. Şoran torpaqların yuyulub yenidən şoranlaşmaması üçün önləyici tədbirlər görülməlidir".

**Alim hələ ki ciddi təhlükənin gözlənmədiyini qeyd etdi:** "Planetdə bu və ya digər fəsadların qarşısının alınması üçün alimlərin kifayət sayda tədqiqatı, təklifi var. İnanıram ki, bu tədqiqatlar öz bəhrəsini verəcək".

**"Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli "Yeni Müsavat"a bildirdi ki, qlobal istiləşmə nəticəsində təbiətdə ciddi dəyişikliklər getməyə başlayıb:** "Milyon illərdir dünyada yaşayan insanlar təbiətə dağıdıcı zərərlər vurmaqdadır. Eyni zamanda atmosfer, litosfer, hidrosfer təkcə insanların deyil, müxtəlif təbiət hadisələrinin də ciddi təsirinə məruz qalmaqdadır. Lakin ətraf mühitə ən intensiv zərər sürətli sənayeləşmə ilə dəyməyə başlayıb. Dəmirin kəşfindən başlayan bu çirklənmənin təsiri isə hava hərarətinin intensiv ölçülməsi və öyrənilməsi ilə ortaya çıxdı. Təxminən üç yüz il ərzində qlobal istiləşmə nəticəsində təbiətdə ciddi dəyişikliklər getməyə başlayıb. Buraya böyük müharibələr, nüvə silahından istifadə, aclıq və qalaktikada gedən proseslər də əlavə olunduqda, vəziyyətin həqiqətən ciddi olduğunu anlamaq olar. Kömürün kütləvi istifadəsi 19-20-ci yüzillərdə karbon dioksidin havada çəkisini yüksəltdi. Buraya bir çox digər təbii komponentləri də əlavə etmək olar. 20-ci əsrin ikinci yarısı və 21-ci əsrdə isə sənayenin güclü inkişafı ilə bəşəriyyət qlobal istiləşmə ilə üz-üzə qaldı. Qütblərdə buzlaqların əriməyə başlaması ilə dünya okeanının səviyyəsi və havanın hərarəti yüksəldi. Bu gün dünyada qlobal istiləşməyə qarşı mübarizə gedir. BMT, Avropa Birliyi və digər təşkilatlar bunun üçün müəyyən addımlar atmağa çalışırlar. Lakin təbiətə ən çox zərər verən ABŞ, Rusiya, Çin, Hindistan kimi böyük ölkələr lazımi addımları ya atmır və ya ata bilmirlər. Düşünürəm ki, qlobal ətraf mühitin mühafizəsi üzrə təşkilatlar bu məsələdə daha da sıx birləşməlidirlər. Xüsusən G-20 Sammiti ölkələrini qlobal istiləşmənin qarşısını almaqda real addımlar atmağa məcbur etmək lazımdır. Qlobal istiləşmənin, quraqlığın bir neçə yüz il sonra öz yerini soyuma və buzlaşmaya verəcəyini də göz önünə alaraq indi daha çox Tanrının bizə dolu verdiyi Yer kürəsi və Qalaktikanı qorumağa çalışmalıyıq. Bunun üçünsə maarifləndirmə, çevrə duyarlığının yüksəldilməsi önəmlidir".

Qeyd edək ki, BMT-nin Ümumdünya Meteorologiya Təşkilatı (ÜMT) həmçinin xəbərdarlıq edib ki, Yerin şimal yarımkürəsini bürüyən isti hava dalğası ilə bağlı sağlamlıq riskləri hələ də aktualdır. Bildirilir ki, isti hava dalğaları ən ölümcül təbiət hadisələri sırasında yer alır. ÜMT-nin baş müşaviri Con Neyrn, öz növbəsində, ekstremal temperaturların tezliyi, müddəti və intensivliyi ilə bağlı xəbərdarlıq edib. O deyib: "Gecə temperaturlarında oynamalar insan sağlamlığı üçün xüsusilə təhlükəlidir, çünki bədən uzun müddət davam edən həddindən artıq istiləşmədən tez bərpa oluna bilmir. Bu, infarktların sayının və ölüm nisbətinin artmasına səbəb olur". ÜMT-nin son hesabatına görə, Avropa ölkələrinin erkən xəbərdarlıq tədbirlərinə baxmayaraq, keçən yay bu qitədə ifrat dərəcədə istilər 60 min insanın ölümünə səbəb olub. Təşkilat həmçinin Asiya, Şimali Afrika və Birləşmiş Ştatlarda isti havalardan ölüm riskinin artacağı barədə xəbərdarlıq edib.

Təşkilat bəyan edib ki, şəhər infrastrukturlarının uzun müddət yüksək temperatura uyğunlaşması, eləcə də həssas əhali qruplarının ifrat dərəcədə istilərlə bağlı risklər barədə məlumatlılığının artırılmasına təcili ehtiyac var. Anomal istilər sürətli urbanizasiya, artan temperatur fonunda ekstremal hava şəraiti və əhalinin qocalması səbəbindən sağlamlıq üçün daha çox təhlükə yaradır. Bu il geniş və intensiv istilik dalğaları həyəcanvericidir, lakin onların müddəti proqnozlara uyğun olduğu üçün sürpriz deyil. Con Neyrnin sözlərinə görə, indiki temperatur sıçrayışları süni iqlim dəyişikliyi nəticəsində yarandığı üçün normal hava hadisəsi sayıla bilməz. Eyni zamanda Şimal qütbündəki buzlar sürətlə əriyir və bu tendensiyanı gücləndirir.

Beynəlxalq Qırmızı Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının səhiyyə üzrə fövqəladə hallar qrupunun rəhbəri Panu Saaristo isə ifrat isti dalğaları "görünməyən fövqəladə hallar" adlandırıb. O vurğulayıb ki, belə dövrlərdə səhhəti ilə bağlı həssas vəziyyətdə olan insanlara diqqət yetirmək, eyni zamanda sosial-iqtisadi şəraiti və həyat keyfiyyətini nəzərə almaq vacibdir, çünki bu amillər əlavə risklər yaradır. Onun sözlərinə görə, hazırda Avropa şəhərlərində ən çox aşağı gəlirli bölgələr zərər çəkir. Ekspert qeyd edib ki, isti hava dalğaları iqtisadi məhsuldarlığı azaldır, səhiyyə sistemlərində gərginliyi artırır və elektrik enerjisinin kəsilməsinə səbəb olur.

ÜMT vurğulayır ki, dünyada getdikcə daha intensiv və ifrat isti hava dalğası labüddür və şəhərləri, evləri, iş yerlərini yüksək temperaturun uzun müddət qalmasına uyğunlaşdırmaqla buna hazırlaşmaq lazımdır.

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Bağçalara uşaqların qəbulu başlayır



**İyulun 25-də məktəbəqədər təhsil müəssisələrinə (bağça) uşaqların qəbulu başlayır.**

Bu barədə Musavat.com-a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Valideynlər www.bq.edu.az ttp://www.bq.edu.az/ saytına daxil olmaqla 2023-2024-cü tədris ili üçün müəssisələrə qəbulla bağlı elektron kabinet yarada biləcəklər.

Avqustun 1-də saat 11:00-da regional təhsil idarələri, avqustun 8-də saat 11:00-da isə Bakı şəhəri üzrə valideynlər məktəbəqədər təhsil müəssisələrinə qəbulla bağlı növbə yarada biləcəklər. Proses sentyabrın 1-dək davam edəcək.

Məktəbəqədər təhsil müəssisələrinə qəbul sistemində növbə yaradarkən 1 uşaq üçün maksimum 3 məktəbəqədər təhsil müəssisəsini seçmək mümkündür. Mövcud növbələrin boş yer olduğu halda sorğuya çevrilməsi prosesi minimum 5 gündən sonra həyata keçiriləcək. Növbə sorğuya çevrildikdən sonra valideyn (və ya qanuni nümayəndə) 15 gün ərzində sənədləri müvafiq müəssisəyə təqdim etməlidir, əks təqdirdə, sorğu silinəcək və növbəli şəkildə digər uşağın qəbulu aparılacaq.

Elektron qəbul sistemi 1-15 sentyabr tarixlərində qrupların komplektləşdirilməsi səbəbindən müvəqqəti dayandırılacaq. Komplektləşdirmə prosesi bitdikdən sonra uşaqların məktəbəqədər təhsil müəssisələrində boş yerlərə qəbulu ilboyu davam edəcək.

Qeyd edək ki, qəbul sistemində ötən tədris ilində yaradılmış növbə və sorğular arxivləşdiriləcək valideyn kabinetinə əlavə edilib. Həmin növbə və sorğular bu il üçün keçərli deyil.

# Azərbaycanda 9000 QİÇS xəstəsi qeydiyyatdadır



**"1987-ci ildən 2023-cü ilin 1 iyul tarixinədək 9000 nəfər Azərbaycan vətəndaşı rəsmi olaraq Respublika QİÇS-lə Mübarizə Mərkəzində qeydiyyatdadır".**

Musavat.com xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Güneş Cəfərova bildirib.

G.Cəfərovanın sözlərinə görə, onlardan 69%-i kişilər, 31%-i qadınlardır.

YENİ MÜSAVAT
Son səhifə
N 123 (8259) 20 iyul 2023
iyul

## Bunları bilirsinizmi?

* Yayda saçlara çoxlu toz qonur. Bunun üçün baş şotkasına köhnə kapron corab dolayır, sonra darayırlar.
* Tez-tez quruyan və qabıq verən dodaqlara 1%-li bor turşusu məhlulu çəkir və ya bitki yağı sürtürlər.
* Yanmış yerə yumurta ağında isladılmış əski qoyurlar. Bu ağrını azaldırır və yara daha tez sağalır. Yanmış yerə tünd çay, marqanez məhlulu da qoymaq faydalı olur.
* Yorğunluğu götürmək üçün ayaqları duzlu suyla vanna etməkdə fayda var.
* Çatlamış dərini qəhvə xıltı ilə ovxaladıqda əllərin dərisi yumuşaq və elastik olur.
* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.
* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridə olan ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərinin belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxamsına şərait yaratmaq üçündür.
* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.
* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.
* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini ilıq suya tökub ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir-neçə dəfə etmək lazımdır.



## Viktor Soyun şərəfinə sikkə buraxılıb

Rusiya Mərkəzi Bankı əfsanəvi musiqiçi Viktor Soyun şərəfinə sikkə buraxıb. Bankın mətbuat xidməti xəbər verir ki, onun nominal dəyəri üç rubl təşkil edir. Gümüş sikkənin arxa tərəfində "Kino" qrupunun yaradıcısı - Viktor Soy təsvir edilib. Burada musiqiçinin doğum və ölüm tarixləri də göstərilib. Qeyd edək ki, bu sikkələrdən cəmi 5000 ədəd istehsal edilib.



## 72 yaşlı model Berlin Moda Həftəsində podiuma çıxıb

Almaniyalı model və aktrisa Anna fon Rüden Berlin Moda Həftəsi çərçivəsində keçirilən "Namilia" brend şousunda iştirak edib.

72 yaşlı model podiuma qara paltarda çıxıb. Onun açıq qalan çiyinləri gözəl bədən quruluşunu diqqətə çəkib. Görünüşünü isə uclu dəri çəkmələr, boyunbağı və böyük gümüş kulon tamamlayıb. Vizajistlər modelin gözlərinə qara qələm, dodaqlarına qəhvəyi dodaq boyası çəkiblər. Stilistlər, öz növbəsində, qadının saçlarını yuxarıdan toppuz şəklində yığıblar.



## Brandenburq qapısı qarşısında evlilik təklifi

Berlinin məşhur Brandenburq Qapısı qarşısında baş tutan evlilik təklifi sosial şəbəkələrdə çoxlu baxış sayı yığıb. Qeyd olunur ki, onlar Türkiyə vətəndaşları olublar və Almaniyada səfərdə bu addımı atıblar.

# Fransalı qadın evində qəhvə içərkən üzərinə meteorit düşdü



**Fransada rəfiqəsi ilə qəhvə içən qadının üzərinə meteorit (göy daşı, səma cismi) düşüb. Bu barədə Fransanın "Les Dernieres Nouvelles d'Alsace" qəzetində yazı dərc olunub. Adı açıqlanmayan qadın evinin eyvanında rəfiqəsi ilə qəhvə içib söhbət edərkən onun kürəyinə naməlum bir daş dəyib.**

"Yanımızdakı damdan yüksək səs gəldiyini eşitdim. Saniyələr sonra qabırğalarımda bir sarsıntı hiss etdim. Bunun hansısa heyvan, yarasa olduğunu düşündüm. Və ya damın üzərini örtən plitələrə vurduğumuz beton parçası ola biləcəyini zənn etdik. Amma rəngsiz idi", - deyə qadın mətbuata verdiyi açıqlamasında qeyd edib. Qadına çırpılan naməlum obyekti araşdıran geoloq Tyerri Rebmann cismin dəmir və silikon qarışığından ibarət olduğunu müəyyən edib. Bu da onun həqiqətən meteorit olması ehtimalını gücləndirir.

Bəzi hesablamalara görə, bir insana meteoritin çırpılması ehtimalı təxminən lotereyada iki dəfə böyük uduşu qazanmağa və ya bir sikkə atıb onun ard-arda 44 dəfə eyni üzünə düşməsi ehtimalına bərabərdir.

NASA-nın təxminlərinə görə, hər gün Yerə 48 ton meteorit düşür, lakin onların böyük əksəriyyəti insanların olmadığı ərazilərə və ya dənizlərə düşür.

Meteoritlərin insanlara dəyməsi ilə bağlı bir neçə tarixi qeyd var. Belə ki, 1954-cü ildə ABŞ-da 9 kiloqramlıq meteorit evin tavanını deşərək bir qadının üzərinə düşüb. Bu hadisə həm də meteoritin bir insana dəydiyi təsdiqlənmiş yeganə hadisə kimi qəbul edilir.

# Bu balıq növü sağlamlığa zərərlidir



**Həkimlər bir çox xəstəliyə səbəb ola bilən məşhur balıq növünü açıqlayıblar.**

Mütəxəssislərin fikrincə, balığın faydaları əsasən onun bişirilmə üsulu ilə müəyyən edilir. Balıq, şübhəsiz ki, ən sağlam protein qidalarından biridir. O, qiymətli iz elementləri ilə zəngindir və bədən tərəfindən tez mənimsənilən "yüngül" protein ehtiva edir. Ancaq bəzi yemək üsulları ilə hətta sağlam qidalar da sağlamlığa mənfi təsir göstərə bilər. Həkimlər duzlu və qurudulmuş balıqları təhlükəli hesab edirlər. Bu cür balıqlar təzyiqin kəskin artmasına səbəb ola bilər.

Duzlu balıq bütün dünyada məşhur qəlyanaltıdır. Bu cür balıq məhsullarının əksəriyyətində yağ tərkibini aşağı saxlayan zülalın olduğuna inanılır. Bununla belə, yüksək qan təzyiqi olanlar üçün potensial zərərli tərkibə malikdir. Buna görə də, pəhrizdə bu cür balıqlar məhdudlaşdırılmalıdır.

## Çin kosmik qayaya zərbə endirəcək

**Çin planetlərin müdafiəsi vasitələrinin sınaqları çərçivəsində Amerikanın DART missiyasının uğurunu təkrarlamağı planlaşdırır. Bu barədə Çin Dərin Kosmik Tədqiqatlar Laboratoriyasının alimləri açıqlama veriblər. Bildirilib ki, 2025-ci ildə kosmosa eyni anda iki qurğu yola düşəcək və onlar Yerə yaxın olan "2019 VL5" asteroidinə doğru uçacaqlar. Qurğulardan biri asteroidi tədqiq edəcək, ikincisi isə uçuş sürətini dəyişmək üçün kosmik qayaya zərbə endirəcək.**

Beləliklə də Çin potensial təhlükəli asteroidlərə qarşı planetlərin müdafiə vasitələrini sınaqdan keçirən dünyada ikinci ölkə olacaq.

## Uşaqlarda baş ağrıları niyə yaranır?

**Baş ağrısı ən çox görülən sağlamlıq problemlərindən biridir. Baş ağrısı təkcə böyüklərin deyil, uşaqların da şikayət etdiyi problemdir. Uşaq Nevrologiyası Mütəxəssisi dossent Hepsen Mine Serin bildirib ki, uşaqlarda baş ağrılarının olmasının bir çox səbəbi var. Onun sözlərinə görə, uşaq tez-tez baş ağrılarından şikayətlənirsə, gündəlik işlərini yerinə yetirməkdə çətinlik çəkirsə, məktəbə getmək istəmirsə və ev tapşırıqlarını yerinə yetirə bilmirsə, mütləq həkimə müraciət etmək lazımdır:**

"Ailələrin diqqət etməli olduğu mühüm məqam isə başı ağrıyan uşağa ağrıkəsici verməkdir. Çünki tez-tez istifadə olunan ağrıkəsicilər uşaqlarda baş ağrılarının daha uzun və şiddətli olmasına və müalicəsini çətinləşdirə bilər. Hər yaşda ola bilən miqren uşaqlarda da inkişaf edir və xüsusilə yeniyetməlik dövründə rast gəlinir. Miqren kimi təkrarlanan baş ağrıları uşaqların həyat keyfiyyətinə mənfi təsir göstərə bilər. Uşaqlarda miqren simptomları böyüklərdən bir qədər fərqli ola bilər. Adətən, böyüklərdən fərqli olaraq, ağrı başın hər iki yerinə təsir edə bilər. Yetkinlərdə olduğu kimi uşaqlarda da başgicəllənmə, işığa və qoxuya qarşı həssaslıq, görmə zəifliyi və yorğunluq kimi problemlər ola bilər".

Uşaqlıq dövründə baş ağrıları "ilkin" və "ikinci dərəcəli" baş ağrıları olaraq iki qrupa bölünür.

Birinci dərəcəli baş ağrıları: Migren və gərginlik adətən yeniyetməlikdə baş ağrılarının ümumi səbəbləridir.

İkinci dərəcəli baş ağrıları: Bakterial infeksiyalar, burun tıxanıqlığı, diş kariyesləri, görmə pozğunluğu, hipertoniya, beyin şişi, hidrosefali, beyin qanaması və kəllə-beyin travması nəticəsində yaranır.

## Bu Ayfon 190 min dollara satıldı

**ABŞ-da keçirilən hərracda 4 GB-lıq ilk Ayfon (iPhone) modeli 190 372 dollara satılıb. Bu barədə BBC məlumat yayıb. Bildirilib ki, bu buraxılış kütləvi olmayıb. "LCG Auctions" hərrac firması tərəfindən keçirilən hərracda bu Ayfonun alınması üçün 28 ərizə təqdim edilib və o, ilkin dəyərindən təxminən 400 dəfə baha qiymətə satılıb.**

## Bütün günü işləyən robot yorğunluqdan yerə yıxıldı

**İnsan kimi davranan ilk robot "Digit", bacarıqlarını nümayiş etdirdiyi bir tədbirdə "yorğunluqdan" yerə yıxılıb. Sosial şəbəkələrdə həmin anların görüntüləri yayılıb. "Digit"i dizayn edən "Agility Robotics" şirkəti bununla bağlı açıqlama yayıb. Bildirilib ki, robot 20 saatlıq performansla 99 faiz müvəffəqiyyət qazansa da, bəzi anlarda tarazlığını itirə bilir.**

Səhifəni hazırladı: SELCAN

Redaktor: Elşad MƏMMƏDLİ

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1828
Lisenziya N: B 114
SAYI: 1.500